AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 16 (1361), 24 - 26 aprel 2018-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*

## Beynəlxalq Şahmat Federasiyasının prezidenti Kirsan İlyumjinovdan

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ölkə əhalisinin Sizə göstərdiyi bu etimad dövlətin mənafeyi naminə uzun illər səmərəli fəaliyyətinizin qanunauyğun nəticəsidir. Seçkilərin nəticələri Azərbaycan xalqının maraqlarını və ümidlərini doğruldan təcrübəli və məsuliyyətli siyasi xadim kimi Sizin yüksək nüfuzunuzun danılmaz sübutudur.

Beynəlxalq Şahmat Federasiyası ilə Sizin gözəl ölkəniz arasında uzun illər davam edən məhsuldar dostluq münasibətləri mövcuddur. Bakıda keçirilmiş 42-ci Ümumdünya Şahmat Olimpiadası bütün şahmat aləmində xoş xatirə kimi iz qoydu. İdman ictimaiyyəti bu Olimpiadanı tarixdə ən yaxşı şahmat yarışı hesab edir. "Məktəblərdə şahmat" proqramı fəal inkişaf etdirilir, bölgələrdə şahmat klubları açılır, beynəlxalq turnirlər keçirilir. Azərbaycan yığması dəfələrlə Avropa komanda çempionatlarında qalib olub. Azərbaycan şahmat məktəbinin, onun çox güclü oyunçularının nüfuzu olduqca yüksəkdir və heç şübhəsiz ki, bu işdə Sizin şəxsi xidmətləriniz böyükdür. Bu il aprelin 18-də Şəmkirdə keçiriləcək 5-ci superturnirin açılış mərasimində böyük məmnuniyyətlə iştirak edəcəyəm.

Sizinlə görüşlərimizi səmimiyyətlə xatırlayıram və bu xoş fürsətdən istifadə edərək, aprelin 19-da Sizin üçün əlverişli olan istənilən saatda ikitərəfli əməkdaşlıq məsələlərini müzakirə etmək üçün görüşməyə razılıq verməyinizi xahiş edirəm.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, tükənməz enerji və ali dövləti vəzifənizdə uğurlar, Azərbaycan xalqına isə tərəqqi və rifah arzulayıram.

*Hörmətlə,*
*Kirsan İlyumjinov*
*Beynəlxalq Şahmat Federasiyasının prezidenti*

## Prezident İlham Əliyev Türkiyənin gənclik və idman nazirini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də Bilal Ərdoğanı və Türkiyə Respublikasının gənclik və idman naziri Osman Aşkın Bakı qəbul edib.

Nazir Osman Aşkın Bak və Bilal Ərdoğan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Baş nazir Binəli Yıldırımın salamlarını dövlətimizin başçısına çatdırdılar. Qonaqlar Prezident İlham Əliyevi prezident seçkilərində inamlı qələbə qazanması münasibətilə bir daha təbrik etdilər və bu qələbənin Türkiyədə böyük qürur hissi ilə qarşılandığını bildirdilər.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, ölkələrimizin gənclər siyasəti və idman sahəsində əməkdaşlığının möhkəmləndirildiyi qeyd olundu, Bakıda keçirilən İslam Əməkdaşlıq Təşkilatı Gənclər və İdman Nazirləri Konfransının 4-cü sessiyasının İslam ölkələri arasında əməkdaşlığın və həmrəyliyin genişləndirilməsi işinə xidmət edəcəyi bildirildi.



Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Baş nazir Binəli Yıldırımın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyənin Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.

## Olimpizm

### Hindistan Olimpiya Oyunları uğrunda mübarizə aparacaq

Hindistan Olimpiya Assoasiyasının (HOA) rəhbəri Narinder Batra ölkəsinin 2032-ci ildə keçiriləcək Olimpiya Oyunlarına ev sahibliyi uğrunda mübarizəyə qoşulacağını açıqlayıb.

"Biz 3 mühüm idman tədbirinə ev sahibliyi etmək üçün ərizə verməyi planlaşdırırıq. Bu tədbirlər Yeniyetmələrin Olimpiya Oyunları-2026, Asiya Oyunları-2030 və Olimpiada-2032 beynəlxalq yarışlarıdır. Ola bilər ki, bizə bu yarışları təşkil etmək qismət olmasın, amma təşkilatçılıqla bağlı əhval-ruhiyyəmiz çox yüksək səviyyədədir", - deyə HOA-nın rəhbəri Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Baxla birgə keçirilən mətbuat konfransında deyib.

Tomas Bax isə öz növbəsində indidən adıçəkilən yarışlara hansı ölkənin ev sahibliyi edəcəyi haqda danışmağın erkən olduğunu deyib: "Yalnız onu demək istəyirəm ki, Hindistanın böyük potensialı var və bu ölkə nə vaxtsa Olimpiya Oyunlarını qəbul edə biləcək. Hazırda Olimpiada-2026 və Olimpiada-2032-yə ərizələrin qəbulu prosesinə hələ start verilməyib. Ona görə də bu barədə danışmaq çox tezdir".

### Con Kouts Tokionun olimpiadaya hazır olmasından şübhəlidir

Beynəlxalq Olimpiya Komitəsinin (BOK) Koordinasiya Komissiyasının sədri Con Kouts Tokio-2020 Olimpiya Oyunları Təşkilat Komitəsinə iradını bildirib.

BOK-un rəsmisi deyib: "Biz yarışlara hazırlıq mərhələsinə qədəm qoyuruq və bu mərhələdə hazırlıqla bağlı yaranacaq suallar qaçılmazdır.

Noyabr ayında Tokioya 200-dən artıq milli Olimpiya komitəsinin nümayəndə heyəti səfər edəcək. Onlar dəqiq informasiya almaq istəyəcək və sizə suallar verəcəklər. Siz cavab vermədiyiniz təqdirdə nümayəndələrin Tokio şəhərinin Olimpiadaya hazır olması məsələsinə şübhə yaranacaqdır".

Məlumat üçün bildirək ki, bəzi beynəlxalq federasiyalar olimpiadaya hazırlığın səviyyəsindən narazılıqlarını bildiriblər.

Tokio-2020 Olimpiadası iyulun 24-dən avqustun 9-dək təşkil ediləcək.

### BOK-un rəhbəri dəstəkləyib

Beynəlxalq Olimpiya Komitəsi (BOK) Tomas Bax adı dopinq qalmaqalında hallanan milli federasiyalara ayrılan kvotaların sayının azaldılması ideyasını dəstəkləyib.

"Inside the Games" nəşrinin yazdığına görə, BOK prezidenti dopinqlə ciddi mübarizə aparmağa çağırıb və bir neçə milli federasiyaları Olimpiya Oyunlarına kvotadan azad edən Beynəlxalq Ağır Atletika Federasiyasını (BAAF) nümunə göstərib.

"BAAF dopinq problemləri olan ölkələri cəzalandıraraq onlara verilən kvotaların sayını azaldıb. BOK İcraiyyə Komitəsi və biz bu ideyanı yaxından dəstəkləyirik", - deyə Tomas Bax bildirib.

Məlumat üçün bildirək ki, BAAF bu ilin aprelində bəyan edib ki, 2008-2012-ci illər ərzində 20 dəfə və ondan çox antidopinq qaydalarını pozan milli federasiyalar Tokio-2020 Yay Olimpiya Oyunlarında cəmi 2 idmançı (1 kişi və 1 qadın) ilə təmsil olunacaq.

## Prezident İlham Əliyev İƏT Gənclər və İdman Nazirləri Konfransının 4-cü sessiyasında iştirak edən gənclər və idman nazirləri ilə görüşüb



Aprelin 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda keçirilən İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Gənclər və İdman Nazirləri Konfransının dördüncü sessiyasında iştirak edən gənclər və idman nazirləri ilə görüşüb.

Dövlətimizin başçısı görüşdə çıxış edərək dedi:

- Əziz qonaqlar, əziz dostlar.

Azərbaycana xoş gəlmisiniz. Sizi görməyə çox şadam. Mən şadam ki, Azərbaycan belə mühüm beynəlxalq tədbirə ev sahibliyi edir. Əminəm ki, bu görüş ölkələrimiz arasında həmrəyliyi, tərəfdaşlığı gücləndirəcək və əməkdaşlığımızın inkişafında çox müsbət dinamika yaradacaq. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının çox fəal üzvüdür. Son illərdə biz nazirlər səviyyəsində çox sayda tədbirlər təşkil etmişik. Mən şadam ki, bu gün gənclər və idman nazirləri bizim qonaqlarımız sırasındadır.

*(ardı 2-ci səhifədə)*

## Azərbaycan ikinci Beynəlxalq həmrəylik tennis çempionatına ev sahibliyi edəcək



Aprelin 19-da Bakıda Azərbaycan Milli Olimpiya Komitəsi (MOK) və İslam Həmrəyliyi İdman Federasiyası (İHİF) arasında anlaşma memorandumu imzalanıb. Mərasim İslam Əməkdaşlıq Təşkilatı (İƏT) ölkələrinin Gənclər və İdman Nazirləri Konfransının 4-cü sessiyası çərçivəsində keçirilib.

Memorandumu MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə və İHİF-in baş katibi Məhəmməd Əl-Qarnas imzalayıblar.

*(ardı 3-cü səhifədə)*

**Futbol üzrə Dünya Çempionatına 51 gün qalır**

FIFA WORLD CUP RUSSIA 2018

**Anons**

**Bakıda bədii gimnastika üzrə "AGF Junior Trophy" turniri keçirilir**

**BMX üzrə dünya çempionatına dəstək yarışlarına start verilib**

Səh. 3

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

**Sağlamlıq üçün idmanın əhəmiyyəti böyükdür**

Səh. 6

## İslam Əməkdaşlıq Təşkilatı gənclər və idman nazirlərinin IV konfransının iştirakçılarına

Hörmətli konfrans iştirakçıları!

Sizi - İslam Əməkdaşlıq Təşkilatı gənclər və idman nazirlərinin IV konfransının iştirakçılarını səmimi qəlbdən salamlayır, hər birinizə işlərinizdə uğurlar diləyir və əmin-amanlıq arzulayıram.

Azərbaycan Respublikası dövlət müstəqilliyinin bərpasına nail olduğu ilk illərdən etibarən İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərdən biri kimi bu təşkilatın fəaliyyətində iştirakına xüsusi əhəmiyyət verir və öz xarici siyasət kursunun əsas istiqamətlərindən biri hesab edir. İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin də Azərbaycanın haqlı mövqeyini daim dəstəkləmələri ölkəmizdə həmişə təqdirlə qarşılanır.

Ötən dövr ərzində iqtisadi gücü və siyasi nüfuzu durmadan artan respublikamız xüsusən son illərdə bir sıra beynəlxalq əhəmiyyətli mötəbər tədbirlərin yüksək səviyyədə keçirildiyi məkana çevrilmişdir. İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində qarşılıqlı əlaqələrin inkişafına verdiyi töhfələr Azərbaycanın böyük İslam sivilizasiyasının təşəkkülündə özünəməxsus mövqeyinə diqqəti bir daha yönəltmişdir.

Azərbaycan İslam ölkələri gənclərinin həmrəyliyinin möhkəmləndirilməsini daim diqqət mərkəzində saxlayır. Bizim təşəbbüsümüzlə Bakıda 2004-cü ildə İslam Əməkdaşlıq Təşkilatı tarixində ilk dəfə Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumu təsis edilmiş və Forumun birinci iclası da burada keçirilmişdir.

Ölkəmiz idman sahəsindəki əməkdaşlığı da xalqlarımız arasında həmrəyliyin mühüm amillərindən biri hesab edərək bu istiqamətdə mühüm addımlar atmışdır. Biz Azərbaycanda "İslam Həmrəyliyi İli"nin elan edildiyi 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etmiş, bu oyunların beynəlxalq standartlara tam uyğun və mütəşəkkil keçirilməsinə nail olmuşuq.

Əminəm ki, konfransınız İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin gənclər və idman sahəsində əməkdaşlığının bundan sonra daha da gücləndirilməsi ilə bağlı geniş müzakirələr aparacaq, qarşılıqlı əlaqələrimizin yeni inkişaf yollarını müəyyən edəcəkdir.

Dərin hörmətlə,

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 18 aprel 2018-ci il.***

## Beynəlxalq Güləş Federasiyasının sabiq prezidenti Rafael Martinettidən

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Seçkilərdəki parlaq qələbəniz ölkənizi inkişaf etdirmək və Azərbaycan vətəndaşlarının rifahını yaxşılaşdırmaq istiqamətində gördüyünüz işlərə xalqınızın inam və etibarının təcəssümüdür.

Beynəlxalq Güləş Federasiyasının prezidenti vəzifəsində çalışarkən mən sizin güləşə və ümumilikdə idmana olan güclü dəstəyinizin şəxsən dəfələrlə şahidi oldum.

Zati-aliləri, Sizə möhkəm cansağlığı, ailənizə xoşbəxtlik, Azərbaycan xalqına isə firavanlıq diləyirəm.

Dərin hörmətlə,

***Rafael Martinetti***
***Beynəlxalq Güləş Federasiyasının sabiq prezidenti***

## Sərbəst güləş üzrə Olimpiya, ikiqat Dünya və Avropa, onqat Türkiyə çempionu Ahmet Ayıkdan

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Aprelin 11-də Azərbaycan xalqının Zati-alinizi böyük səs çoxluğu ilə yenidən prezident seçməsi xalqın etimad və sabitliyin daha da möhkəmlənərək davam etməsi istəyini nümayiş etdirib.

Cənab Prezident, Azərbaycan dövlətinin, onun xalqının birliyinin təminatçısı olan Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edir, Sizə dərin ehtiramımı bildirirəm.

Dərin hörmətlə,

***Ahmet Ayık***
***Sərbəst güləş üzrə Olimpiya, ikiqat Dünya və Avropa, onqat Türkiyə çempionu***

## Avstriyanın Vyana şəhərindən "Karabakh Vienna" Futbol Klubu İdarə Heyətinin prezidenti Orxan Vəliyevdən

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Sizi Azərbaycan Respublikası Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə "Karabakh Vienna" Futbol Klubu İdarə Heyətinin kollektivi adından və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edirəm.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdiyi ilk illərdən ulu öndərimiz Heydər Əliyev ölkəmizdə idmanın inkişafını və idman vasitəsi ilə Azərbaycan Respublikasının dünyada tanıdılmasını prioritet istiqamət olaraq müəyyənləşdirmiş və bu siyasət Sizin tərəfinizdən uğurla davam etdirilmişdir.

Azərbaycan xalqının Sizə göstərdiyi yüksək etimad Sizin xidmətlərinizin və nailiyyətlərinizin, ölkəmizin iqtisadi qüdrətinin artmasına, beynəlxalq arenada nüfuzunun yüksəldilməsinə, mədəni-mənəvi dəyərlərimizin qorunub saxlanılmasına yönəlmiş siyasi kursunuzun təntənəsinin sübutudur.

Cənab Prezident, ali dövlət fəaliyyətinizdə Sizə yeni-yeni uğurlar, xalqımıza sülh və firavanlıq arzu edirəm.

Hörmətlə,

***Orxan Vəliyev***
***Avstriyanın Vyana şəhərindən "Karabakh Vienna" Futbol Klubu İdarə Heyətinin prezidenti***

# Prezident İlham Əliyev İƏT Gənclər və İdman Nazirləri Konfransının 4-cü sessiyasında iştirak edən gənclər və idman nazirləri ilə görüşüb

*(əvvəli 1-ci səhifədə)*



Azərbaycan hər zaman qardaş müsəlman ölkələrinin dəstəyini hiss edir və öz növbəsində, bütün beynəlxalq təşkilatlarda qardaşlarını dəstəkləyir. Biz BMT-də, sözsüz ki, İslam Əməkdaşlıq Təşkilatında, İqtisadi Əməkdaşlıq Təşkilatı kimi başqa müxtəlif regional təşkilatlarda fəal əməkdaşlıq edirik. Azərbaycan qardaş ölkələrlə həmrəyliyin və tərəfdaşlığın gücləndirilməsi siyasətini davam etdirəcək. Biz hər zaman bir-birimizi dəstəkləməli, bir-birimizin yanında olmalıyıq. İslam Əməkdaşlıq Təşkilatı Ermənistanla Azərbaycan arasında torpaqlarımızın 20 faizinin qonşu Ermənistan tərəfindən işğalı ilə nəticələnmiş münaqişənin həlli ilə bağlı bir neçə qətnamə qəbul edib. Bu münaqişə nəticəsində bir milyondan çox azərbaycanlı öz torpaqlarında qaçqın və məcburi köçkünə çevrilib. Biz etnik təmizləməyə məruz qalmışıq. Ermənistan Xocalıda azərbaycanlılara qarşı soyqırımı törədib. Hazırda bu soyqırımı dünyanın 10-dan çox ölkəsi tərəfindən tanınır. Biz münaqişənin BMT Təhlükəsizlik Şurasının və digər beynəlxalq təşkilatların qətnamələri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli ilə bağlı İslam Əməkdaşlıq Təşkilatının üzvləri olan qardaşlarımızın Azərbaycana göstərdikləri davamlı dəstəyə görə çox minnətdarıq. Ermənistan rəhbərliyi işğal olunmuş torpaqlarda hər şeyi dağıdıb. ATƏT iki dəfə işğal olunmuş ərazilərə faktaraşdırıcı missiyalar göndərib. Onların hesabatı bizim tarixi və dini abidələrimizə qarşı vandalizm aktı törədildiyini göstərir. Məscidlərimiz Ermənistan tərəfindən dağıdılıb. Məzarlarımız, tarixi abidələrimizin hamısı dağıdılıb. Hər şey dağılıb. Xalqımız, həmçinin mədəni soyqırımına məruz qalıb. Lakin hər zaman dediyim kimi, onlar bizim yaddaşımızı, inamımızı məhv edə bilməzlər. İşğal olunmuş torpaqların bir hissəsi iki il bundan əvvəl azad ediləndən sonra Azərbaycan həmin ərazini yenidən qurmağı qərara aldı və hazırda orada insanlar yaşayır. Biz orada 150 evdən ibarət qəsəbə tikdik, məktəb, tibb mərkəzi və məscid inşa etdik. Bu məscid ermənilərin qədim Şuşa şəhərində dağıtdığı məscidin eynisidir. Bunu etməklə biz bir daha barbarlara göstəririk ki, onlar bizim taleyimizi məhv edə bilməzlər. Biz işğal olunmuş bütün ərazilərə qayıdacağıq və oraları yenidən quracağıq. Biz o ərazilərə həyatı qaytaracağıq.

Mən Azərbaycana hər zaman göstərdikləri davamlı dəstəyə və həmrəyliyə görə müsəlman dünyasındakı bütün qardaşlarımıza çox minnətdaram. Bu, bizi daha da gücləndirir. Biz müsəlman ölkələrinin həmrəyliyinə böyük töhfələr veririk. Ötən il Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunub. Biz Azərbaycanda və xaricdə çox sayda tədbirlər təşkil edərək müsəlman ölkələrinin birliyini nümayiş etdirdik. Biz dinimizin əsl simasını, mədəniyyətimizi, tarixi irsimizi, potensialımızı və bəşəriyyətin inkişafına verdiyimiz töhfəni nümayiş etdiririk. Yəqin ki, bilirsiniz, ötən il biz IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etdik. Bu da bizim birliyimizi nümayiş etdirdi. Bu, təkcə idman tədbiri deyildi. Bu, bizim birliyimizin, həmrəyliyimizin və imkanlarımızın nümayişi idi. Ona görə də, biz bütün müsəlman ölkələri arasında həmrəyliyə öz töhfəmizi verməyə çalışırıq. Həmçinin sizə məlumat vermək istərdim ki, bu il bizim qədim şəhərimiz olan Naxçıvan İSESCO tərəfindən İslam mədəniyyətinin paytaxtı elan olunub və biz bunu geniş şəkildə qeyd edirik. Bir neçə il bundan əvvəl paytaxtımız Bakı da İslam mədəniyyətinin paytaxtı idi. Bu, bizim gördüyümüz işlərin müsəlman dünyasına nümayişi, birlik və həmrəyliyin nümayişidir.

Azərbaycan ərazisində çox sayda tarixi, dini abidələr var. Biz bu abidələri qoruyub saxlamışıq və onlar bizim, tarixi irsimizin bir parçasıdır. Onların arasında qeyd etmək istərdim ki, dünyanın ən qədim məscidlərindən biri, qədim Şamaxı şəhərində 743-cü ildə inşa edilmiş məscid Azərbaycanda yerləşir. Bir neçə il bundan əvvəl o, əsaslı şəkildə yenidən qurulub. Beləliklə, biz tariximizi, ənənələrimizi, mədəniyyətimizi qoruyub saxlayırıq və bir-birimizi dəstəkləmək üçün çox işlər görürük.

Bizim müsəlman ölkələri ilə çox yaxşı əlaqələrimiz var. İkitərəfli əlaqələr çox yaxşıdır. Biz siyasi cəhətdən bir-birimizi dəstəkləyirik. Azərbaycan, həmçinin yaxşı iqtisadi perspektivlər yaradan və potensialımızı gücləndirən bəzi layihələrə başlayır. Biz təkcə mühüm əhəmiyyət kəsb edən həmrəylik nümayiş etdirməklə deyil, eyni zamanda, iqtisadi cəhətdən bir-birimizi dəstəkləməliyik. Bu gün Azərbaycan donor ölkə olaraq çox sayda müsəlman ölkəsində humanitar yardım, təhsil, səhiyyə ilə bağlı çoxsaylı sosial, humanitar tədbirlər həyata keçirir. Biz məktəblər tikirik, qaçqınlara yardım edirik. Bizim həmrəyliyimizin sonuncu nümayişi Rohinca qaçqınlarına göstərdiyimiz humanitar yardımdır. Biz doğru düşündüyümüzü reallaşdırırıq və bu, bütün müsəlman ölkələri arasında birlik və həmrəyliyi gücləndirir, çünki gücümüz birlikdədir. Sözsüz ki, gənclər siyasətinə məsul nazirlər və digər rəsmi şəxslər olaraq siz ölkələrimizin sosial həyatının çox əhəmiyyətli bir hissəsini əhatə edirsiniz. Siz gənc nəslə bir-birini daha yaxşı tanımağa kömək edirsiniz. Çünki gənc nəsil birlikdə olmalıdır. Biz, müsəlman ölkələrinin liderləri olaraq etdiyimiz və etməli olduğumuz kimi, onlar da bir-birini dəstəkləməlidirlər. Bu səbəbdən də düşünürəm ki, Bakıdakı bu görüş gənclərimiz üçün əhəmiyyət kəsb edir. Bu, ölkəmizdə keçirilən mühüm beynəlxalq tədbirdir. Bizdə çox sayda beynəlxalq tədbirlər keçirilir, lakin bu, xüsusi əhəmiyyət kəsb edir. Mən bizimlə birlikdə olduğunuza görə sizə təşəkkürümü bildirmək istərdim. Bilirəm ki, konfransınız uğurla başlayıb və onun işini uğurla başa çatdırmağınızı arzulayıram. Ümid edirəm ki, Azərbaycan haqqında daha çox məlumat əldə etməyə, bəzi tarixi məkanları görməyə vaxtınız olacaq. Əminəm ki, azərbaycanlı ev sahibləri sizin öz vətəninizə yaxşı xatirələrlə qayıtmağınız üçün əllərindən gələni edəcəklər. Bir daha xoş gəlmisiniz. Bizimlə birlikdə olduğunuz üçün təşəkkür edirəm.

Sonra İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yusif bin Əhməd əl-USEYMİN çıxış edərək dedi:

- Cənab Prezident, bizi belə mötəbər tədbir, İslam Əməkdaşlıq Təşkilatı Gənclər və İdman Nazirləri Konfransının dördüncü sessiyası çərçivəsində qəbul etdiyinizə və nazirlərə dəstək göstərdiyinizə görə çox sağ olun. Bu, İslam Əməkdaşlıq Təşkilatının fəaliyyətinin bir hissəsidir. İcazə verin, əvvəlcə yenidən prezident seçilməyiniz münasibətilə Sizi təbrik edim. Mən Uca Allaha bu böyük xalqın uğuru, sülh və firavanlıq içində yaşaması üçün dua edirəm. Mən, həmçinin İslam Əməkdaşlıq Təşkilatının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın haqq işini dəstəklədiyini vurğulamaq istəyirəm. Bu, İslam Əməkdaşlıq Təşkilatı üçün prioritetdir, biz bunu bütün qətnamələrimizdə qeyd edirik, istər sammit çərçivəsində, istərsə də xarici işlər nazirlərinin qətnamələrində. Bu, haqq işidir və biz, sadəcə, Birləşmiş Millətlər Təşkilatının qətnamələrinin icra olunmasını tələb edirik. İkincisi, Sizin də düzgün buyurduğunuz kimi, gənclər müsəlman dünyasında əhalimizin böyük seqmentini təşkil edir və biz təəssüf hissi doğuran hadisələrə, ekstremizmə və terrorizmə göstərdiyimiz münasibətlə bağlı onlara ümid verməliyik. Beləliklə, mən istəyirəm ki, biz, İslam Əməkdaşlıq Təşkilatı Gənclər və İdman Nazirləri Konfransı istər idman, istərsə də digər fəaliyyətlər vasitəsilə yalnız gənc nəslimizin çox yaxşı mənada iştirakını nəzərdə tutan proqramın tərtib olunmasını təmin etsin. Mən həmişə deyirəm ki, gənclərimiz müəyyən yaxşı keyfiyyətlərə malik gənclərdir, əks halda, onlar pis işlər görərdilər. Ən yaxşı hal müsəlman ölkələrində sırf gənclər və cəmiyyət üçün nəzərdə tutulmuş mənalı proqram və siyasətlərin tərtib edilməsidir.

Əlbəttə ki, cənab Prezident, Sizə də təşəkkürümü bildirirəm. Çünki bu, Sizin ideyanız idi və siz 2005-ci ildə burada Bakıda bu forumun təşəbbüskarı oldunuz. Biz bunu və Sizin gənc nəsil üçün olan baxışınızı, əzm və sadiqliyinizi dərin minnətdarlıq hissi ilə xatırlayırıq. Bizim buradakı görüşümüz Sizin vaxtilə təşəbbüskarı olduğunuz uğurlu ideyanın sübutudur. Əlbəttə ki, Bakı Azərbaycanın Sovetlər İttifaqından ayrıldıqdan sonra necə dəyişilməsi, müasir və çiçəklənən şəhərə çevrilməsi nöqteyi-nəzərdən uğurlu bir eksperimentdir. İndi isə ölkəniz turizm nöqteyi-nəzərindən regionun qibləsinə çevrilib. Biz bununla qürur duyuruq və Sizin düzgün qeyd etdiyiniz kimi, ölkələrimiz və İslam Əməkdaşlıq Təşkilatı arasında iqtisadi əməkdaşlığı dəstəkləyirik və turizm bu əməkdaşlığın uğurla necə həyata keçirilməsi üçün çox mühüm elementdir.

Cənab Prezident, bir daha Sizə öz təbriklərimi çatdırıram. Biz Zati-alinizə söz veririk ki, Sizin bütün tapşırıqlarınız və müdrik fikirləriniz, plan, strategiya və həmin bu gənclər strategiyasına aid olan fəaliyyət planı, inşallah, həyata keçiriləcək.

x x x

Daha sonra İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumu İdarə Heyətinin qərarına əsasən, İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun yaranması və inkişafındakı təşəbbüs və roluna, İslam Əməkdaşlıq Təşkilatı gəncliyinin inkişafına yönəlmiş fəaliyyətlərə və quruma üzv ölkələr arasında həmrəyliyin gücləndirilməsinə verdiyi daimi və müstəsna dəstəyə görə Prezident İlham Əliyevə İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun "Gənclərin hamisi" ilk Fəxri Nişanı və xatirə hədiyyəsi təqdim olundu.

Prezident İlham ƏLİYEV dedi:

- Bu mükafata görə çox sağ olun. Mən bunu yüksək qiymətləndirirəm. Təşəkkür edirəm. Doğru olaraq qeyd etdiyiniz kimi, Azərbaycan ölkələrimizin gənclərinin bir araya gəlməsində mühüm rol oynayıb. Şadam ki, Gənclər Forumu uğurla fəaliyyət göstərir. Çıxışımın əvvəlində qeyd etdiyim kimi, məqsədimiz ölkələrimiz arasında həmrəyliyi gücləndirməkdir ki, gənc nəsil bizim yolumuzu davam etdirsin.

x x x

Sonda xatirə şəkli çəkdirildi.

# Azərbaycan ikinci Beynəlxalq həmrəylik tennis çempionatına ev sahibliyi edəcək

*(əvvəli 1-ci səhifədə)*

Memorandumun məqsədi İHİF-ə üzv ölkələrin idmançıları arasında İslam həmrəyliyini möhkəmləndirmək, ən yüksək idman dəyərləri və prinsiplərini qoruyub saxlamaq, İslam ölkələrində idman və Olimpiya hərəkatını və gənclər arasında birlik və qardaşlığı təbliğ etməkdir.

Əməkdaşlığı inkişaf etdirmək üçün Azərbaycan bu ilin iyul ayında ikinci Beynəlxalq həmrəylik tennis çempionatına ev sahibliyi edəcək.

Memorandum Bakı-2017 IV İslam Həmrəyliyi Oyunlarının irsi kimi dəyərləndirilib.

***Tədbirdən sonra Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə "Olimpiya dünyası" qəzetinə memorandumla bağlı fikirlərini bildirib.***

- Azərbaycan Milli Olimpiya Komitəsi ilə İslam Həmrəylik İdman Federasiyası arasında çox böyük əlaqələr var. Məhz bu münasibətlərin nəticəsidir ki, 2017-ci ildə ölkəmiz IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etdi. Biz IV İslam Həmrəyliyi Oyunlarından sonra da öz əlaqələrimizi genişləndirmək istəyirik. Bu məqsədlə 4 il müddətində bir memorandum imzalandı. Bu memorandum əsasında Azərbaycanda müxtəlif idman növləri üzrə İSSF çərçivəsində müəyyən yarışlar keçiriləcək. Bu il ilk yarışımızı tennis idman növü üzrə keçirmək istəyirik. Bu Azərbaycan Milli Olimpiya komitəsi və İslam Həmrəyliyi Konfederasiyasının birgə tədbiri olacaq. Ümid edirəm ki, biz gələcəkdə də bir bir sıra yarışlar və mötəbər idman tədbirlərinə ev sahibliyi edəcəyik. Bu, Azərbaycan və İslam ölkələri arasında əlaqələri gücləndirəcək və hər tərəfli inkişafa zəmin yaradacaq.

# Bakıda bədii gimnastika üzrə "AGF Junior Trophy" turniri keçirilir

"AGF Junior Trophy" turniri bu ilin iyun ayının 1 - 3-də İspaniyanın Quadalaxara şəhərində təşkil ediləcək bədii gimnastika üzrə Avropa çempionatı formatında keçirilir.

Məlumat üçün bildirək ki, aprelin 27-29-da böyük gimnastlar Bakıda bədii gimnastika üzrə FİG Dünya kuboku yarışlarında qüvvələrini sınayacaqlar.

Milli Gimnastika Arenası daha bir mötəbər yarışa ev sahibliyi edir. Dünyanın 18 ölkəsindən olan gənc gimnastlar "AGF Junior Trophy" turnirində medallar uğrunda mübarizə aparırlar.

Beynəlxalq Gimnastika Federasiyasının (FIG) qaydalarında əsasən, turnirdə 2003-2005-ci il təvəllüdlü gənc gimnastlar fərdi proqramda öz istedadlarını nümayiş etdirirlər. Gimnastlar yarışların ilk günündə halqa, top, gürz və lentlərdə fərdi, eləcə də komanda hesabında finallar uğrunda yarışıblar. İkinci yarış günündə idmançılar öz aralarında ayrı-ayrı alətlərdə ən güclüləri müəyyənləşdirəcəklər.

# Beynəlxalq turnir uğurla başa çatdı



Bakı İdman Sarayında Aprel döyüşlərində qəhrəmancasına həlak olmuş polkovnik-leytenant Raquf Orucovun xatirəsinə həsr olunmuş "Raquf Orucov Kuboku" ikinci beynəlxalq cüdo turniri keçirilib. Yarışın keçirilməsində əsas məqsəd gənclərdə vətənpərvərlik hissini, döyüş ruhunu, habelə onların Vətənin müdafiəsinə hazırlıq səviyyəsini artırmaq, idmançılar arasında dostluq və yoldaşlıq əlaqələrini möhkəmləndirməkdir. Turnirin açılış mərasimində dövlət və hökumət qurumlarının nümayəndələri, Milli Məclisin deputatları, veteran hərbçilər, şəhid ailələrinin üzvləri, tanınmış idmançılar, ictimai təşkilatların təmsilçiləri iştirak ediblər.

Əvvəlcə Azərbaycanın dövlət himni səsləndirilib, şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra ordumuzun zəfər salnaməsinə qəhrəmanlıq səhifəsi kimi yazılmış 2016-cı ilin Aprel döyüşləri haqqında qısa videoçarx nümayiş olunub.

Milli Məclisin deputatı Qənirə Paşayeva, Azərbaycan Cüdo Federasiyasının nümayəndəsi, Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi Sahib İsmayılov aprel döyüşlərinin əhəmiyyətindən, hərbçilərimizin şücaətindən danışıb, Raquf Orucovun və digər şəhidlərin qəhrəmanlığının gənc nəsil üçün örnək olduğunu bildiriblər. Şəhid polkovnik-leytenantın qardaşı Zabil Orucov turnirin təşkilatçısı "Azman" Holdinqə və "Judo Club 2012" idman klubuna ailə üzvləri adından təşəkkür edib.

Turnirin açılış mərasimində yeniyetmə cüdoçular nümunəvi çıxışlar ediblər. İncəsənət ustaları vətənpərvər ruhda musiqi parçaları səsləndiriblər.

Sonra turnirdə iştirak edən idmançılar tatami üzərinə dəvət olunublar.

Turnirdə Bakını və bölgələrimizi təmsil edən yaşı 21-dək olan oğlan və qızlardan ibarət komandalarla yanaşı, Rusiya və Gürcüstandan gələn cüdo klubları da iştirak ediblər.

Turnirin final görüşündə "Judo Club 2012" və "Qəbələ" klubları qarşılaşıblar. Daha yaxşı çıxış edən "Qəbələ" klubunun yeniyetmə cüdoçuları 5:1 hesabı ilə qalib gələrək "Raquf Orucov Kuboku"na sahib olublar. Bürünc medallara isə "Atilla-1" və Gürcüstan komandaları layiq görülüblər.

Qaliblərə mükafatlar və qiymətli hədiyyələr təqdim olunub.

# BMX üzrə dünya çempionatına dəstək yarışlarına start verilib

Velosiped idmanının BMX növü üzrə iyunun 5-9-da Bakıda keçiriləcək dünya çempionatının məktəblilər arasında təbliği və onların velosiped idman növünə marağının artırılması məqsədilə Azərbaycan Respublikası Təhsil Nazirliyi və Azərbaycan Velosiped İdmanı Federasiyasının dəstəyi, "Təhsil" Respublika İdman Mərkəzinin təşkilatçılığı ilə kütləvi idman tədbirlərinə start verilib.

Proqram çərçivəsində ilk yarış Xətai rayonu 17 saylı orta məktəbdə keçirilib. Rayondaxili mərhələ yarışında 32 məktəbin 200-ə yaxın şagirdi iştirak edib.

Yarışın yekununa əsasən, I yerə 29 saylı, II yerə 138 saylı, III yerə isə 17 saylı orta məktəbin komandası layiq görülüb. Qalib və mükafatçılar təşkilatçılar tərəfindən kubok və diplomlarlara təltif edilib.



Dünya çempionatına dəstək məqsədilə ikinci velosiped yarışı Bakı şəhəri Nərimanov rayonu 82 nömrəli tam orta məktəbin idman meydançasında baş tutub. Yarışda 21 məktəbdən 130 şagird iştirak edib. Yarışın nəticəsinə əsasən, I yerə 212, II yerə 45 və III yerə 178 nömrəli tam orta məktəblərin komandası layiq görülüb. Qaliblər kubok və diplomlarlarla təltif edilib.

Yarışlar Bakı, Gəncə, Sumqayıt, Mingəçevir şəhərlərini, Abşeron, İsmayıllı, Zaqatala rayonlarını əhatə edəcək. İyunun 2-dək davam edəcək kütləvi idman tədbirlərində 4 mindən çox məktəblinin iştirak edəcəyi gözlənilir.

## Nepalda keçirilən turnirdə gümüş medal

Azərbaycan şahmatçısı Azər Mirzəyev Katmanduda (Nepal) keçirilən beynəlxalq turnirdə ikinci yer tutub.

Sonuncu - 9-cu turda şahmatçımız hindistanlı Harşa Baratakoti ilə heç-heçə oynayıb. Həmyerlimiz və daha 6 iştirakçı 7 xal toplayaraq, yarışları başa vurublar. Lakin ən yaxşı əlavə əmsal A.Mirzəyevdə olduğundan, o, ikinci yerə layiq görülüb.

Turnirin qalibi adını isə rəqiblərini yarım xal üstələyən Harşa Baratakoti qazanıb.

## Beynəlxalq qrossmeysterlərdən ustad dərsləri

Təhsil Nazirliyinin tabeliyində olan idman-şahmat məktəblərinin şahmatçılarından ibarət "Təhsil" Respublika İdman Mərkəzinin yığma komandasının üzvlərinin dünya çempionatına hazırlığı ilə əlaqədar "Zuğulba" Tədris İdman Bazasında təlim-məşq toplanışı keçirilib.

Təlim-məşq toplanışı çərçivəsində komanda üzvləri üçün beynəlxalq qrossmeysterlər Şəhriyar Məmmədyarov və Rauf Məmmədov tərəfindən ustad dərsləri təşkil edilib. Qrossmeysterlər məktəbli şahmatçılar üçün iki saat ərzində eyni vaxtda oyun seansı keçirib, onlara beynəlxalq yarış təcrübələri barədə məlumat veriblər.

## "İlk liqa kuboku"nun qalibi müəyyənləşib

Azərbaycan Taekvondo Federasiyasının dəstəyi və "Ümid" taekvondo klubunun təşkilatçılığı ilə "İlk liqa kuboku" keçirilib. Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin taekvondo komandası məşqçi Elməddin Vəliyevin rəhbərliyi ilə Azərbaycan taekvondo tarixində ilk dəfə uşaq, yeniyetmə və gənclərdən ibarət 111 nəfərlik komanda ilə yarışda mübarizə aparıb. Turnirdə 13 qızıl medalla birinci yeri tutan komanda "İlk liqa kuboku"nun və "İlk komanda kuboku"nun da sahibi olub.

İki gün davam edən turnirdə 37 komandadan 625 uşaq, yeniyetmə və gənc taekvondoçu qüvvələrini sınayıb.

Yarışlar Azərbaycan Boks Federasiyasının idman zalında keçirilib.

## Millimiz "Gloria Cup" beynəlxalq turnirində yarışacaq

Qadın voleybolçulardan ibarət Azərbaycan millisi Türkiyədə keçiriləcək "Gloria Cup" beynəlxalq turnirində iştirak edəcək.

Yaponiyada keçiriləcək dünya çempionatına hazırlıq xarakteri daşıyan turnirdə millimiz Türkiyə, İtaliya və Rusiya voleybolçuları ilə qarşılaşacaq.

Beynəlxalq turnir avqustun 22-26-da Antalyada təşkil olunacaq.

## Təmsilçimiz növbəti döyüşünə çıxacaq



Peşəkar boksçumuz, dünya və Avropa çempionu Azad Əzizov aprelin 28-də növbəti dəfə Azərbaycan bayrağı altında beynəlxalq rinqə çıxacaq. Titullu idmançımızın budəfəki rəqibi albaniyalı tanınmış boksçu Miloş Yanyanin olacaq.

Döyüş Almaniyada fəaliyyət göstərən "Odlar Yurdu" boks klubunun təşkilatçılığı ilə keçirilən beynəlxalq boks turniri çərçivəsində olacaq. Beynəlxalq statuslu bu yarış zəngin boks ənənələri olan Bavariya torpağının Kempten şəhərində keçiriləcək.

"Odlar Yurdu" klubunun meneceri Anar Axundzadə bildirib ki, boksçumuz Azad Əzizov bu döyüşünü Aprel şəhidlərinin xatirəsinə və Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr edəcək.

## Peşəkar rinqdə beşinci qələbə

Azərbaycanın və "Qəbələ" idman klubunun boksçusu Zamiq Atakişiyev peşəkar rinqdə növbəti döyüşünü keçirib. 32 yaşlı idmançımız Rusiyanın Yekaterinburq şəhərində təşkil olunan "Extra Round" seriyalı turnirdə qüvvəsini sınayıb.

Zamiq Atakişiyev "Extra Round 7" şousunun 9-cu döyüşündə rinqə çıxıb. Superağır çəki dərəcəsində (90,7 kq-dan yuxarı) mübarizə aparan idmançımız Boliviya təmsilçisi Saul Farah ilə 6 raundluq döyüşdə üz-üzə gəlib. Peşəkar rinqdə 6-cı sınağına çıxan təmsilçimiz zəngin təcrübəyə malik (65 qələbə, 3 heç-heçə, 23 məğlubiyyət) cənubi amerikalını məğlub edib. Saulun döyüşünü davam etdirməkdən imtinası Zamiq Atakişiyevin texniki nokautla qələbəsini rəsmiləşdirib. Bu, hesabında 1 heç-heçə olan boksçumuzun 5-ci qələbəsi olub.

## U-16 millimiz yoxlama oyununda gücünü sınayıb

Bakıda təlim-məşq toplanışını davam etdirən 16 yaşınadək futbolçulardan ibarət Azərbaycan yığması "Qarabağ"ın U-17 komandası ilə yoxlama oyunu keçirib.

Qarşılaşma "Qarabağ"ın 2:1 hesablı qələbəsi ilə başa çatıb.

Yığmanın heyətində Nihad Cəfərov fərqlənib.

# 43-cü Ümumdünya Şahmat Olimpiadasının rəsmi təqdimatı olub

***Aprelin 17-də Gürcüstanın paytaxtı Tbilisidə "Batumi-2018" 43-cü Ümumdünya Şahmat Olimpiadasının rəsmi təqdimatı olub.***

***Tədbirdə Gürcüstanın dövlət və hökumət rəsmiləri, dünya şahmatının ulduzları, FİDE -nin rəsmiləri, beynəlxalq təşkilatların və idman ictimaiyyətinin nümayəndələri iştirak ediblər.***

Ölkəmizi bu tədbirdə Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti, Bakı Şahmat Olimpiadasının Əməliyyat Komitəsinin direktoru, SOCAR-ın Gürcüstan nümayəndəliyinin rəhbəri Mahir Məmmədov təmsil edib.

Tədbirdə Gürcüstanın mədəniyyət və idman naziri Mixail Qeorqadze çıxış edərək bildirib ki, Gürcüstan 2014-cü ildə Toronto şəhərində FİDE-nin Baş Assambleyasında 43-cü Şahmat Olimpiadasının Batumidə keçirilməsinə nail olub. O zaman Gürcüstan 93 səs toplayaraq qalib gəlib. Gürcüstanın əsas rəqibi Cənubi Afrikanın Durban şəhəri isə 58 səslə mübarizədən kənarda qalıb. Bu qələbəni ölkəsi üçün çox önəmli və əlamətdar hadisə adlandıran nazir deyib ki, olimpiadada 189 ölkədən 4 minə yaxın qonaq iştirak edəcək.



Nazir 2016-cı ildə Bakıda keçirilən 42-cü Ümumdünya Şahmat Olimpiadasının möhtəşəmliyindən söz açaraq bildirib ki, estafeti Azərbaycandan qəbul etmək çox çətin, lakin şərəfli bir işdir.

M.Qeorqadze 43-cü Şahmat Olimpiadasının təşkilindəki mənəvi, maddi və texniki dəstəyə görə Azərbaycan dövlətinə, eləcə də, Azərbaycanın Mədəniyyət və Turizm Nazirliyinə, SOCAR-a minnətdarlıq edib. Bildirib ki, Azərbaycanın dəstəyi Gürcüstan üçün xüsusi əhəmiyyət kəsb edir.

Sonra çıxış edənlər idmanın inkişafı, 43-cü Şahmat Olimpiadasının təşkili və digər məsələlərlə bağlı fikirlərini bölüşüblər.

Mahir Məmmədov jurnalistlərə açıqlamasında Batumidə 43-cü Şahmat Olimpiadasının yüksək səviyyədə keçiriləcəyinə əminliyini ifadə edib, təşkilatçılara və idmançılara uğurlar arzulayıb.

Gürcüstan Şahmat Federasiyasının prezidenti Gio Georqadze jurnalistlərə müsahibəsində deyib ki, Batumidə keçiriləcək 43-cü Şahmat Olimpiadası, əslində, Gürcüstan üçün böyük idman bayramıdır: "Biz bu oyunların estafetini Azərbaycandan almışıq. Çalışacağıq ki, yaxın qardaş və dostumuz olan Azərbaycan kimi biz də olimpiadanı yüksək səviyyədə təşkil edək. Bunun üçün Azərbaycandan dəstək alırıq. Buna görə Azərbaycan tərəfinə, xüsusən də, SOCAR-a xüsusi təşəkkürümü bildirirəm. SOCAR 10 ildir ki, bizim federasiyanın sponsorudur. Bunun nəticəsində idmançılarımız böyük uğurlar qazanıblar".

Federasiya prezidentinin sözlərinə görə, olimpiadanın yüksək səviyyədə keçirilməsi üçün Batumidə xüsusi idman zalları var. Daha bir zalın tikintisi isə davam edir və bu arena da yaxın vaxtlarda istifadəyə veriləcək.

# "Shamkir Chess-2018"də sükut pozuldu



Şəmkirdə mərhum qrossmeysterimiz Vüqar Həşimovun xatirəsinə həsr olunmuş "Shamkir Chess-2018" superturniri keçirilir. V Vüqar Həşimov Memorialında ilk üç turun oyunlarında bütün qarşılaşmalar heç-heçə başa çatıb. Ötən gün yarışda dördüncü turun görüşləri keçirilib. Üç turdan sonra memorialda sükut pozulub. Belə ki, Şəhriyar Məmmədyarov bolqarıstanlı Veselin Topalova məğlub olub.

Turun digər görüşlərində Teymur Rəcəbov Norveç təmsilçisi Maqnus Karlsenlə, Rauf Məmmədov polşalı Radoslav Voytaşeklə, hollandiyalı Aniş Qiri Çin şahmatçısı Dinq Lirenlə, Rusiya idmançısı Sergey Karyakin isə çexiyalı David Navara ilə heç-heçə edib.

Hesabında 2,5 xal olan Veselin Topalov birinci pillədə qərarlaşıb. M.Karlsen, T.Rəcəbov, R.Məmmədov, A.Qiri, D.Liren, S.Karyakin və D.Navara, R.Voytaşek 2 xalla 2-9-cu pilləni bölüşürlər. Ş.Məmmədyarov isə 1,5 xalla sonuncudur.

# Tunisdə 15 medal

Tunisdə yeniyetmə cüdoçular arasında Afrika kuboku uğrunda beynəlxalq turnir keçirilib. Yarış Argentinada keçiriləcək yeniyetmələrin Olimpiadasına lisenziya xalları verib. Azərbaycan cüdoçuları beynəlxalq turnirdə 5 qızıl, 6 gümüş və 4 bürünc medal qazanıblar. Vüsalə Kərimova (44 kq), Aytac Qardaşxanlı (48 kq), Mirağa Hacıyev (50 kq), Vüqar Talıbov (66 kq), Yaqub İsmayılzadə (90 kq) bütün rəqiblərinə qalib gələrək çempion olub.

# Formula-1



## Bakıda yeni kartinq mərkəzi istifadəyə verilib

"Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin (BŞH) təşkilatçılığı və Azərbaycan Avtomobil Federasiyasının (AAF) dəstəyi ilə Su İdmanı Sarayının ərazisində Bakı Şəhər Kartinq Mərkəzi istifadəyə verilib. Yeni yaradılmış mərkəzdən 7 yaşından yuxarı bütün şəhər sakinləri faydalana biləcəklər. Kartinq Mərkəzinin yaradılmasında əsas məqsəd Azərbaycanda avtoidman mədəniyyətini inkişaf etdirmək, ictimaiyyət arasında idmanın bu növünə marağı artırmaq və gələcək Formula-1 yarışları üçün yerli kadrlar hazırlamaqdır.

Bakı Şəhər Kartinq Mərkəzinin ictimaiyyətlə əlaqələr üzrə meneceri Elnarə Əliyeva mərkəzin ölkəmizdə avtoidman mədəniyyətinin inkişafında əvəzsiz xidmət göstərəcəyini bildirib: "Artıq üç ildir ki, ölkəmizdə avtoidmanın ən nüfuzlu yarışı olan Formula-1 Qran-Pri yarışları keçirilir. Bu yarışlar sayəsində ölkə ictimaiyyəti, xüsusən də gənclər arasında avtoidmana böyük maraq yaranıb. Biz Kartinq Mərkəzini ərsəyə gətirməklə avtoidmana maraq göstərən gənclərimiz bu imkanlardan yararlanaraq Formula-1-də yarışan pilotlar səviyyəsində özlərini yetişdirə bilsinlər. İnanırıq ki, bu mərkəz çox yaxın gələcəkdə ölkəmizə beynəlxalq avtoidman yarışlarında mübarizə aparan peşəkar pilotlar qazandıracaq".

Bakı Şəhər Kartinq Mərkəzində istifadə olunan kartinq maşınları (kart) Fransanın "SODİ KARTS" şirkəti tərəfindən istehsal edilib. Bu kartlar texniki göstəriciləri, rahatlığı, müasir tərtibatı və ən əsası təhlükəsizliyi baxımından digərlərindən fərqlənir.

Kartinq yolunda eyni anda 24 kartın hərəkəti mümkündür. Təhlükəsizliyi təmin etmək məqsədilə kartinq yolunun kənarı keyfiyyətli baryerlərlə əhatə olunub. Bu baryerlərin içərisinə doldurulmuş rezin hissəciklər və kənarına çəkilmiş xüsusi lent zərbənin təsirini azaltmaqla yanaşı, həm də onun bütün baryer boyunca bərabər paylanmasını təmin edir. Bundan başqa, sürücülərə xüsusi dəbilqələr və od keçirməyən kombinezonlar da verilir.

Tamaşaçıların yarışı rahat izləmələri üçün xüsusi izləmə zonasının və kafenin də olduğu mərkəzdə qonaqlara yaşına uyğun maşınlar təqdim olunur. Kartları idarə etməyi yeni öyrənənlər isə ikinəfərlik maşınlardan istifadə edə bilərlər.

Digər tərəfdən, mərkəz gənclər arasında mütəmadi olaraq yarışlar keçirməyi planlaşdırır. Bu yarışlarda yeni sürücülərlə yanaşı, peşəkarlar da iştirak edəcəklər. Yerli kadrların hazırlanması məqsədilə gələcəkdə azyaşlılar üçün peşəkar pilot kurslarının təşkili nəzərdə tutulur.

## "Ferrari" Bakı Qran-Prisinə daha cəsarətli şin seçimi edib

İtaliyanın şin istehsalçıları Azərbaycanda keçiriləcək Formula 1 mövsümünün dördüncü mərhələsi üçün pilotların strategiyasını dərc ediblər. "Pirelli" Formula 1-in hər mərhələsi üçün pilotların hər birinə 13 şin dəsti təqdim edir. Pilot özü onlardan 10-nu seçə bilər.

Trasda uzun xətt məsafələrinin çox olduğu Bakı mərhələsində "Ferrari", "Sauber" pilotları, həmçinin, "McLaren" yürüşçüsü Stoffel Vandorn ən cəsarətli seçim ediblər. Onların hər birində on dəst "UltraSoft" ən yumşaq şinləri və bir-iki "Soft" və "SuperSoft" dəsti olacaq.

"UltraSoft" şinlərini ən az seçən "Renault" pilotlarıdır (hərəyə yeddi dəst). Karlos Sayns, Niko Hyulkenberq və "Williams" pilotu Lens Stroll dörd dəst "SuperSoft" seçiblər. Pelotondan heç bir pilot sərt və daha münasib olan "Soft"un iki dəstindən artığını seçməyib.

Bakı Qran-Prisinin ilk dəfə çempionatın təqviminə daxil edildiyi 2016-cı ildə yarışlar iyun ayında keçirildi. 2018-ci ildə isə bu turnir aprelin sonuna təsadüf edir və Azərbaycanda havanın temperaturunun yay mövsümündən fərqli olacağı rezinə təsir edəcək.

Formula 1 "Pirelli" proqramının rəhbəri Mario İzola deyib: "Bakı trası kifayət qədər qəribədir. Yolun bəzi hissələrini günəş tutur, digərləri isə kölgədə qalır. Beləliklə, trasın müxtəlif hissələrində temperatur fərqlidir. Ötən il yarışlar iyunda keçirilib, indi isə hər şey fərqli olacaq".

İzolanın sözlərinə görə, Bakıda "UltraSoft" şinlərinin ən yumşaq dəsti Çində olduğundan daha yavaş yeyiləcək. Şanxaydakı yarışlarda bəzi pilotlar şinlərin daha tez sıradan çıxdığını qeyd ediblər.

"Hesab edirəm ki, Şanxayla müqayisədə Bakıda "UltraSoft" o qədər də cəsarətli seçim deyil. Trasın konfiqurasiyası rezinə qarşı daha az tələbkardır, orada asfaltın hamarlığı başqadır. Düşünürəm ki, heyətlərarası vaxt fərqi saniyənin yarısını keçməyəcək".

* * *

Aprelin 17-də Daxili İşlər Nazirliyinin (DİN) Daxili Qoşunlarının Bakıda yerləşən "N" saylı hərbi hissəsində Formula 1 Azərbaycan Qran-Prisi zamanı xidmətin aparılmasına hazırlıq yoxlanılıb.

Daxili işlər nazirinin müavini - Daxili Qoşunların Komandanı, general-leytenant Şahin Məmmədovun iştirakı ilə keçirilən tədbirdə yarış zamanı digər hüquq-mühafizə orqanları ilə birlikdə ictimai qaydanın qorunmasına və ictimai təhlükəsizliyin təmin olunmasına cəlb ediləcək hərbi qulluqçuların xidmətə hazırlığı, xüsusi vasitə, avadanlıq və rabitə vasitələri ilə təchizatı, təminat məsələlərinin həlli, eləcə də nəqliyyat vasitələrinin vəziyyəti yoxlanılıb.

Daxili işlər nazirinin müavini - Daxili Qoşunların Komandanına məruzə edilib ki, yarış ərəfəsində xidməti-döyüş tapşırıqlarının və müəyyənləşdirilmiş vəzifələrin tam həcmdə yerinə yetirilməsi üçün planlaşdırılmış hazırlıq tədbirlərinin vaxtlı-vaxtında icrası təmin olunur. İlk növbədə, müvafiq plan-hesab hazırlanaraq şəxsi heyətin xidmət sahələri üzrə bölgüsü aparılıb, digər hüquq-mühafizə orqanları ilə qoşunların birgə fəaliyyətinin əlaqələndirilməsi, tədbirin təşkilatçıları, aidiyyəti dövlət qurumları ilə qarşılıqlı əlaqələrin təşkili məqsədilə baş idarəetmə mərkəzi yaradılıb. Yarışların təşkil olunacağı ərazi və obyektlərə baxış keçirilərək xidmətin təşkili təhlil olunub, aidiyyəti üzrə komandir heyəti xidmətaparma yerləri ilə əyani tanış edilib. Xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsinə cəlb olunan şəxsi heyətə yarışın əhəmiyyəti, qanunçuluq, vətəndaşların hüquq və azadlıqlarının qorunması prinsipləri izah edilib, vəzifə borclarının icrasına məsuliyyətlə yanaşılması tələb olunub. Həmçinin şəxsi heyətin daşınmasında nəqliyyat vasitələrinin sazlığına xüsusi diqqətin yetirilməsi və düzgün istismarının təşkilinə önəm verilməsi qeyd edilib.

Bildirilib ki, yarış zamanı xüsusi icazəsi olmayan şəxslərin buraxılmasının və avtomaşınların daxil olmasının, eyni zamanda, baş verə biləcək hər hansı bir fövqəladə halın qarşısının alınması ilə əlaqədar müəyyənləşdirilmiş vəzifələr peşəkarlıqla yerinə yetiriləcək.

Diqqətə çatdırılıb ki, hazırlıq mərhələsində həvalə edilən obyektlərin mühafizəsi, nəzarət-buraxılış məntəqələrində buraxılış rejiminin təmin olunması üzrə xüsusi məşğələlər keçirilir, xidmətə cəlb olunacaq qadın hərbi qulluqçuların da müvafiq məşğələlərdə iştirakı təmin edilir.

Sonra xüsusi təyinatlı bölmələrin, perimetr boyu xidmətin aparılmasına cəlb olunacaq şəxsi heyətin, o cümlədən qadın hərbi qulluqçuların xüsusi geyim formalarına və hərtərəfli təminatına, xüsusi vasitə və avadanlıqlarla, rabitə vasitələri ilə təchizatına, nəqliyyat vasitələrinə baxış keçirilib.

Şəxsi heyətin hazırlığını yüksək qiymətləndirən general-leytenant Ş.Məmmədov Formula 1 Azərbaycan Qran-Pri yarışları ilə bağlı qarşıya qoyulmuş tapşırıqların icrasına məsuliyyətlə yanaşılmasının, nəzərdə tutulmuş tədbirlərin vaxtında və tam həcmdə həyata keçirilməsinin vacibliyini vurğulayıb.

Daxili işlər nazirinin müavini - Daxili Qoşunların Komandanı xidmətin aparılması ilə əlaqədar konkret tapşırıqlarını verərək, şəxsi heyətə bu məsuliyyətli işdə uğurlar arzulayıb, qarşıya qoyulmuş vəzifələrin yüksək səviyyədə yerinə yetiriləcəyinə əminliyini bildirib.

Xüsusi olaraq diqqətə çatdırıb ki, DİN-in Daxili Qoşunları mötəbər idman yarışı ilə əlaqədar etimadı doğruldaraq nümunəvi nizam-intizamı, üzərinə düşən vəzifələri peşəkarcasına yerinə yetirməsi ilə dövlətçiliyə və andına sadiqliyini bir daha nümayiş etdirəcək.

* * *

Mövsümün əvvəlində "Liberty Media"da bütün yürüş həftəsonlarının cədvəli dərc edilib.

Ötən illərlə müqayisədə bir neçə dəyişiklik baş verib: indi bütün yürüşlər saatın başlanmasından 10 dəqiqə sonra start götürür. Gözlənildiyinə görə, teleşirkətlər bu əlavə vaxt ərzində starta marağı qızışdıracaqlar.

Bundan əlavə, Avropa mərhələlərinin cədvəli dəyişib. İndi Avropa traslarında bütün sessiyalar 2017-ci illə müqayisədə bir saat gec başlayacaq. Dəstək yürüşlərinin sessiyalarının vaxtı da bir saat geri çəkilib.

Bir ay keçməmiş, mayın 11-13-də Barselonada Formula 1 İspaniya Qran Prisi keçiriləcək və bu yürüş yeni cədvəllə işləyən birinci Avropa mərhələsi olacaq.




* * *

Formula 1 yarış həyəcanının üçüncü dəfə Bakıya qayıtması ilə hadisələrin mərkəzində yer alan "Hilton Baku" hoteli ənənəsinə davam edir. Formula 1 Azərbaycan Qran-Prisinin texniki təftiş marşalları hoteldə yeni istifadəyə verilmiş "McLaren"in otağında yaradılan şəraitlə maraqlanıblar.

Yarışın marşalları "McLaren" qarajından əvvəl bu otağa baxış keçirərək, həm unudulmaz təəssüratlar yaşayıb, həm də yeni təcrübə qazanıblar.

Texniki təftiş marşalları gündəlik olaraq hər bir bolidi, o cümlədən qəzaya uğramış bolidə də təftiş edərək onun təhlükəsizlik və yarışa uyğunluq tələblərinə cavab verib-vermədiyini müəyyən edirlər. Yarışdan əvvəl komandaların qarajlarını, həmçinin pilotun istifadə etdiyi bütün aksesuarları yoxlamadan keçirərək qaydalara uyğun olmasına nəzarət edirlər.



2005-ci ildən etibarən "McLaren" komandasının tərəfdaşı olan "Hilton" bu böyük yarışın iştirakçısı olan komandaya "ikinci ev" kimi xidmət göstərir. Təsadüfi deyil ki, 60-ı yarışların keçirildiyi 17 ölkədə olmaqla ümumilikdə, 5200-dən artıq hoteldən ibarət şəbəkəsi olan "Hilton" ilə "McLaren" arasında əməkdaşlıq gündən-günə güclənir.

Ötənilki uğurun davamı olaraq "Hilton Baku" oteli bu il də komanda ilə birgə "McLaren" dizaynlı otaq hazırlayıb. Otağın tərzi "McLaren"in pilotları - Stoffel Vandorndan və ikiqat dünya çempionu Fernando Alonsodan ilhamlanaraq yaradılıb.

Otaqdan Bakıya və təqvimdəki ən sürətli şəhər trekinə mənzərə açılır.

Bəzədilməsində istifadə olunan dəyərli xatirə əşyaları isə birbaşa "McLaren" komandasının Böyük Britaniyadakı mənzil-qərargahından gətirilib. Bura komandanın yeni rəngləri və dizaynını özündə əks etdirən pilot geyimləri və dəbilqələr, "Pirelli" yarış təkərləri və sükan - bir sözlə, çox az sayda insanın yaxından görə bildiyi, daha azının isə toxuna bildiyi əşyalar aiddir.

"McLaren"in otağı 73 milyondan çox üzvü olan "Hilton Honors" loyallıq proqramının rəsmi internet səhifəsində hərraca çıxarılıb. Qonaqlardan biri 110 min xallıq ən yüksək təklifi edərək bu unikal otağı icarəyə götürüb. Qaliblər yarış günlərində həm bu xüsusi dizaynlı otaqdan, həm də pəncərədən Bakı şəhər halqasına açılan möhtəşəm mənzərədən zövq ala biləcəklər.

# Redaksiyanın poçtundan

Azərbaycan Polisinin 100 illik yubileyinə həsr olunmuş cüdo üzrə DİN çempionatı keçirilib.

Açılış mərasimində çıxış edən DİN İdman Cəmiyyətinin sədri, Olimpiya, dünya və Avropa çempionu, polis polkovniki Zemfira Meftaxetdinova Azərbaycan polisinin ulu öndər Heydər Əliyevin dövlətçilik xəttinə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müdrik siyasətinə həmişə sadiq olduğunu bildirib. DİN sədri çıxışında bunun daxili işlər orqanlarının əməkdaşları üçün ən böyük şərəf və qürur mənbəyi olduğunu diqqətə çatdırıb. Ölkəmizin sarsılmaz təməllər üzərində formalaşmış ictimai-siyasi sabitlik şəraitində inkişafında, dövlətçiliyin qorunmasında, asayişin mühafizəsində, konstitusiya ilə təsbit olunmuş insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı təminatında daxili işlər orqanlarının mühüm xidmətlərindən danışıb və ölkə rəhbərliyinin daxili işlər orqanlarına diqqət və qayğısını xüsusilə vurğulayıb.

Qeyd edilib ki, ötən 100 ildə Azərbaycan polisinin xalqa sədaqətlə xidmət etməsi, öz vəzifələrini daim ləyaqətlə yerinə yetirərək xalqın mənafelərini qoruması, müstəqillik illərində əldə etdiyi yüksək nəticələrlə hazırda ölkəmiz MDB məkanında, həmçinin Şərqi Avropa bölgəsi üzrə cinayətlərin sayının azlığı, sabitliyin etibarlı təminatı baxımından ən yaxşı göstəricilərə malikdir.

## Yubileylə bağlı cüdo yarışı keçirilib



Məlumat üçün bildirək ki, 100 ildən artıq tarixi olan cüdo idman növü Yaponiyada yaranıb və bu gün dünyada ən populyar idman növlərindəndir. Olimpiya idman növü olan cüdoda ölkəmizi sərhədlərimizdən kənarda uğurla təmsil edən idmançılarımız yetərincədir. DİN İdman Cəmiyyətində keçirilən bu yarışda ərazi polis orqanları, nizami hissə və tədris müəssisələrini təmsil edən ümumilikdə 10 komandadan 80 idmançı qələbə uğrunda mübarizə aparıb.

Gərgin keçən yarışlarda iştirakçılar arasında qaliblər müəyyənləşib. Komanda birinciliyində ilk üçlükdə Əlahiddə Çevik Polis Alayı, DİN Daxili Qoşunlarının Baş İdarəsi və Polis Akademiyasının əməkdaşları qərarlaşıblar.

Müvafiq olaraq öz çəki dərəcələrində güclərini sınayan K.Məmmədli (62 kq, DQ), R.Diniyev (66 kq, PA), F.Mikayılov (73 kq, Gəncə ŞBPİ), A.Fətullayev (81 kq, ƏÇPA), H.Cəbiyev (90 kq, ƏÇPA), K.Abdullaxanlı (100 kq, BMİ) və A.Mehrəliyev (+100 kq, ƏÇPA) yarışın baş mükafatına sahib olublar.

Yarışların idarə olunmasında polis polkovnik-leytenantları Elnur Həsənov, Seymur Qurbanbəyov və polis kapitanı Əlişan Tunc iştirak edib.

Mükafatlandırma mərasimində çıxış edən İdmanın təşkili bölməsinin rəisi, polis polkovnik-leytenantı Mülayim Xıdırov əməkdaşların hazırlıq səviyyəsinin yüksək olduğunu, polis idmançılarımızın ildən-ilə təcrübələrinin artdığını diqqətə çatdırıb.

Sonda qaliblərə medallar, diplomlar vəqiymətli hədiyyələr təqdim olunub.

***Zeyni Hüseynov,***
***DİN Mətbuat Xidmətinin əməkdaşı***

# *Xəbərlər*

## "Pəhləvan" birinci oldu

AHİT İB-nin güləş zalında 2004-2006-cı illər təvəllüdlü güləşçilər arasında "Pəhləvan" RİK İB-in yunan-Roma güləşi üzrə açıq birinciliyi keçirilib. Turnirin keçirilməsində əsas məqsəd perspektivli idmançıları üzə çıxarmaq, onların yarış təcrübələrinin artırmaqdan ibarət olub. Yarışda 12 komandadan 142 idmançı qüvvəsini sınayıb. Gərgin mübarizə şəraitində keçən yarışda komanda hesabında birinci yerə "Pəhləvan" RİK İB layiq görülüb. Roil ikinci, Hövsan OİK isə üçüncü yeri tutub.

Qaliblər diplom və medallarla təltif olunublar.

## "Federasiya kuboku" uğrunda komanda yarışları keçirilib

İsmayıllıda cüdo üzrə regionlararası "Federasiya kuboku" uğrunda komanda yarışları keçirilib. Yarış 15 yaşınadək cüdoçular arasında təşkil olunub. Yarışda respublikamızın 5 bölgəsindən olan perspektivli cüdoçular mübarizə aparıblar. Daha yaxşı nəticə göstərən "Bakı-2" komandası "Federasiya kuboku" yarışlarının ilk mərhələsinin qalibi olub. "Sumqayıt-3" klubu ikinci, "Şimal-1" komandası isə üçüncü yeri tutub.

# Xatirə turnirlərinə start verilib

Aprel ayının 21-də vergi xidməti əməkdaşları arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-cü ildönümünə həsr olunmuş 13-cü ənənəvi şahmat turnirinə start verilib. Turnir Gənclər və İdman Nazirliyinin və Azərbaycan Şahmat Federasiyasının dəstəyi ilə Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən təşkil olunub. Vergilər nazirinin müavini Sahib Ələkbərov Azərbaycanda şahmatın indiki səviyyəyə çatmasında ulu öndər Heydər Əliyevin müstəsna xidmətləri olduğunu vurğulayıb.

O, qeyd edib ki, Azərbaycana rəhbərlik etdiyi uzun illər ərzində ümummilli lider idmanın inkişafına daim böyük qayğı göstərib. Məhz Heydər Əliyevin təşəbbüsü ilə respublikamızın şəhər və rayonlarında çoxsaylı uşaq-gənclər şahmat məktəbləri istifadəyə verilib, güclü şahmat məktəbi yaradılıb. Çox keçməyib ki, şahmatçılarımızın beynəlxalq turnirlərdəki bir-birindən uğurlu çıxışları ilə şahmat həvəskarlarını sevindirməyə başlayıblar. Bu proses bu gün də davam edir və şahmatın inkişafı ölkə başçısı İlham Əliyevin diqqət mərkəzindədir.

Sonda Sahib Ələkbərov ulu öndərin xatirəsinə həsr olunan şahmat turnirinin vergi xidməti əməkdaşlarının asudə vaxtının səmərəli təşkili və onların intellektual potensialının nümayiş etdirilməsi baxımından böyük əhəmiyyətə malik olduğunu söyləyərək, tədbir iştirakçılarına uğurlar arzulayıb.



Nazirliyin müxtəlif struktur bölmələrindən 48 əməkdaşın iştirak etdiyi, Olimpiya sistemi üzrə keçirilən turnir mayın 5-də başa çatacaq.

*    *    *

Aprelin 22-də Pirallahı rayonunda Yeni Azərbaycan Partiyası (YAP) Pirallahı rayon təşkilatının və Koşiki-Karate Federasiyasının birgə təşkilatçılığı ilə xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illik yubileyinə həsr olunmuş Koşiki Karate-do döyüş növü üzrə turnir keçirilib.

Turnirdə respublika idman cəmiyyətlərindən 70-dək idmançı iştirak edib. Yarışın açılış mərasimində çıxış edən YAP Pirallahı rayon təşkilatının sədri, rayon icra hakimiyyətinin şöbə müdiri Hikmət Şikarov ümummilli lider Heydər Əliyevin müasir Azərbaycan tarixindəki rolundan, idmanın inkişafına göstərdiyi diqqət və qayğısından danışıb.

Eyni zamanda, Azərbaycanda idmanın inkişafına göstərilən dövlət qayğısından bəhs edən Hikmət Şikarov idmançılarımızın Olimpiya, Avropa və dünya çempionatlarındakı parlaq qələbələr qazandıqlarını vurğulayıb.

Azərbaycan Kosiki Karate-do Federasiyasının prezidenti Talıb Berziqiyarov çıxışında idmanın bu növünün ölkəmizdə inkişafı istiqamətində görülən işlərdən, təşkil olunan yarışlardan danışıb, idmançılara uğurlar arzulayıb.

Turnirin sonunda qaliblərə YAP Pirallahı rayon təşkilatının və federasiyanın diplom, kubok və medalları təqdim olunub.

*    *    *

Bakıda ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş sahə həmkarlar ittifaqı təşkilatlarının komandaları arasında mini futbol üzrə yarışlara start verilib. Turnir Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Hİ Respublika Komitəsinin Rəyasət Heyətinin və "Spartak" KBTİC-İctimai Birliyinin İdarə Heyətinin birgə qərarına əsasən təşkil olunub. Yarışlar Olimpiya növləri üzrə milli komandalar üçün təlim-məşq mərkəzinin meydançalarında keçirilir. 10 komandanın iştirak etdiyi mini futbol turnirinə may ayının 4-də yekun vurulacaq.

# Universal döyüşçülərimiz uğurlarını davam etdirirlər

***Son illlər ölkəmizdə universal döyüş idman növündə yüksək nailiyyətlər əldə olunub. Bu idman növü ilə məşğul olan təmsilçilərimiz iştirak etdikləri ən mötəbər yarışlardan vətənə medallarla qayıdırlar. Döyüşçülərimiz indiyədək keçirilən dünya və Avropa çempionatlarında qızıl, gümüş, bürünc medallar qazanaraq ölkəmizi dünyada layiqincə təmsil edirlər.***

***Müxtəlif illərdə ayrı-ayrı yaş qrupları üzrə respublikamızda keçirilən Avropa və dünya çempionatları, birinciliklər, ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş ənənəvi beynəlxalq turnirlər yüksək təşkilatçılığı ilə yadda qalıb.***

Ötən il Azərbaycan Universal Döyüş Federasiyası üçün uğurlu illərdən olub. İdmançılarımız yerli və beynəlxalq yarışlarda yüksək nəticələr qazanıblar. Federasiya tərəfindən universal döyüşün respublikamızın müxtəlif bölgələrində inkişaf etdirilməsi istiqamətində mühüm işlər görülüb.



Qeyd edək ki, aprelin 5-dən 8-dək Ağdam rayonunun Quzanlı qəsəbəsində Olimpiya İdman Kompleksinin zalında ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş universal döyüş üzrə beynəlxalq turnir keçirilib. Yarışda 10 dövlətdən 300-dək idmançı iştirak edib. Yarışın açılış mərasimindən əvvəl aprelin 6-da rəsmilər və yarış iştirakçıları ümummilli lider Heydər Əliyevin Quzanlı qəsəbəsindəki abidəsini ziyarət edərək, abidə önünə əklil və gül dəstələri düzüblər. Yeniyetmə, gənclər və böyüklər arasında keçirilən yarışın yekununa əsasən Azərbaycan komandası birinci pillədə qərarlaşıb. İkinci və üçüncü yeri isə müvafiq olaraq Rusiya və Gürcüstan komandaları tutublar. Böyüklər arasında keçirilən yarışlarda 60 kq çəki dərəcəsində qızıl medalı Rusiya təmsilçisi Nikolay Oçkin qazanıb. Digər çəkilərdə Azərbaycan təmsilçiləri Elvin Hüseynov (65 kq), Namiq Məmmədzadə (70 kq), Nicat Əliyev (75 kq), Əli Həsənli (80 kq), Fərid Mirzəbəyev (85 kq), Sürət Hüseynov (+90 kq), Mehman Hüseynov (95 kq), Allahşükür Fərzəliyev (+ 95 kq) birinci olublar. Nodar Liadze (60 kq, Gürcüstan), İrzaq Əliyev (65 kq, Azərbaycan), Fəxri Abbasov (70 kq, Azərbaycan), Saleh Qurbanov (75 kq, Azərbaycan), Yalçın Abdulla (80 kq, Türkiyə), Əliqismət Məmmədov (85 kq, Azərbaycan), Boxtiyar Maşaripov (95 kq, Özbəkistan), Ravid Mirzəbəyev (90 kq), İlham Mahmudov (+ 95 kq, Azərbaycan) gümüş medallara sahib çıxıblar.

Beynəlxalq turnirin təşkili ilə bağlı ətraflı məlumat verən Azərbaycan Universal Döyüş Federasiyasının prezidenti, Beynəlxalq Universal Döyüş Federasiyasının I vitse-prezidenti Azər Həsənov ölkəmizdə idmana göstərilən diqqət və qayğıdan da danışdı: "Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyevin idman sahəsində apardığı uğurlu siyasətin nəticəsidir ki, ölkəmizdə idman yüksək səviyyədə inkişaf edir. Respublikamızda Olimpiya idman növləri ilə yanaşı, qeyri-Olimpiya idman növlərinə də dövlət tərəfindən diqqət və qayğı göstərilir. Azərbaycan Gənclər və İdman Nazirliyi, Azərbaycan Universal Döyüş Federasiyasının təşkilatçılığı ilə ölkəmizdə indiyədək bu növ üzrə bir sıra mötəbər beynəlxalq turnirlər təşkil edilib. Yığmanın üzvləri Avropa və dünya çempionatında, beynəlxalq turnirlərdə mükafatalayiq yerlər tutublar. Bu il ənənəyə uyğun olaraq federasiya tərəfindən Ağdamda ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş beynəlxalq turnir keçirildi. Qeyd edim ki, belə yarışların təşkili ölkəmizdə universal döyüşün inkişafına və təbliğinə xidmət etməklə yanaşı, yeniyetmə və gənclərin hərbi-vətənpərvər ruhda böyümələrinə şərait yaradır. Xatırladım ki, indiyədək biz bir sıra yarışları bölgələrdə keçirmişik. Hazırda respublikamızın 60 bölgəsində federasiyanın nümayəndəliyi fəaliyyət göstərir. Budəfəki yarış cəbhə bölgəsində təşkil olundu. Bu gün Azərbaycan müharibə şəraitindədir. Belə bir idman növü üzrə yarışların məhz cəbhə bölgəsində təşkili həmçinin yeniyetmə və gəncləri vətənin müdafisinə ruhlandırır onlarda qələbə əzmini yüksəldir. Bununla yanaşı, məqsədimiz regionlarda gənclərin idmana cəlb olunması ilə yanaşı, onların sağlam ruhda böyüməsinə təkan verməkdir.

Qeyd edim ki, məhz bu məqsədlə biz yarışa paytaxt idmançıları ilə yanaşı, bölgələrdəki seçmə idmançıları da cəlb etmişdik. Yarışda Rusiya, Gürcüstan, Ukrayna, Türkiyə, İran, Özbəkistan, Litva, Belarus komandalarının üzvləri güclü rəqiblər sırasında idi. Buna baxmayaraq, idmançılarımız onlara bəslənilən ümidləri doğrultdular. Yarışın yekununa əsasən hər yaş qrupu üzrə yığma komandanın tərkibini müəyyənləşdirdik".

Qazanılan uğurların nəticəsidir ki, Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti cənab İlham Əliyev tərəfindən 2017-ci ilin yekunlarına əsasən AUDF prezidenti Azər Həsənov fəxri fərman, yığmanın üzvü Nicat Əliyev isə mənzillə mükafatlandırlıb.

"Olimpnews.az" saytının 2017-ci ilin yekununa əsasən keçirdiyi sorğuda isə Azərbaycan Universal Döyüş Federasiyası gənclərin hərbi-vətənpərvər ruhda tərbiyəsində fəaliyyətinə görə "İlin ən yaxşı federasiyası", yığmanın üzvü Tahir Məsimov qeyri-Olimpiya idman növləri üzrə "İlin idmançısı" adına layiq görülüb. Azər Həsənov 2017-ci ilin Azərbaycan universal döyüşçüləri üçün uğurlu illərdən biri olduğunu bildirdi: "Yığma komandanın üzvləri builki yarışlarda uğurlu çıxışları ilə yadda qalıblar. Bildiyiniz kimi, universal döyüşdə yerli və beynəlxalq səviyyəli yarışlar 10-11, 12-13, 14-15, 16-17 və 18-yaşdan yuxarı yaş qrupları üzrə keçirilir. Təmsilçilərimiz qeyd olunan yaş qrupları üzrə 2017-ci ildə yüksək nailiyyətlər əldə ediblər. Ümumilikdə, ötən il ərzində universal döyüşçülərimiz keçirilən beynəlxalq, Avropa və dünya səviyyəli yarışlarda 29 qızıl, 43 gümüş, 43 bürünc medala sahib çıxıblar. Əlbəttə ki, qazanılan uğurlar federasiyanın məqsədyönlü fəaliyyətinin nəticəsidir", - deyə Azər Həsənov əlavə etdi.

***Aysel Sultanova***

# Natalya Məmmədova bu dəfə "gümüş" qazandı

Qadın voleybolçular arasında Rusiya Superliqasında final mərhələsinin oyunları başa çatıb. Azərbaycan millisinin hücumçusu Natalya Məmmədovanın çıxış etdiyi Kazanın "Dinamo" komandası həlledici görüşdə Moskva "Dinamo"su ilə bacarmayıb.



Belə ki, Tatarıstanda ilk 2 görüşü uduzan komanda paytaxtda keçirilən üçüncü qarşılaşmada da məğlubiyyətə üzülüb. Kazanlılar 2:3 hesabı ilə uduzublar. Hücumçumuz oyunda 1 xal yığıb.

Beləliklə, Rusiya kubokunun sahibi olan Natalya Məmmədovanın komandası mövsümdə "qızıl dubl" edə bilməyib. Onlar gümüş medalla kifayətləniblər. Moskva "Dinamo"sunun çempion olduğu Super Liqada üçüncü yeri isə "Uraloçka" tutub. Nikolay Karpolun komandası "Yenisey"dən güclü olmaqla, Çempionlar Liqasında vəsiqə qazanıblar.

Qeyd edək ki, Natalya buna qədər Rusiya çempionatında 3 dəfə bürünc medala yiyələnmişdi. O, 2010-da Krasnodarın "Dinamo", 2013-cü və 2014-cü ildə "Omiçka" ilə fəxri kürsünün üçüncü pilləsinə qalxmışdı.

# "Lokomotiv"dən ardıcıl 2-ci çempionluq

Kişi voleybolçular arasında Azərbaycan Yüksək Liqasının final mərhələsinə yekun vurulub. Bu gün komandalar ikinci dəfə üz-üzə gəliblər. 3-cü yer uğrunda görüşdə "Neftçi" MOİK-lə qarşılaşıb. İlk oyunda rəqibini üstələyən "Neftçi" yenə qələbə qazanıb və bürünc medallara sahib çıxıb. Ardından qızıl medal uğrunda yarışan "Lokomotiv"lə "Sərhədçi" münasibətlərinə aydınlıq gətirib. "Dəmiryolçular" yenə qələbə qazanmaqla ardıcıl 2-ci dəfə Azərbaycan çempionu adına yiyələniblər.

## Yüksək Liqa

**21 aprel**

İkinci oyunlar

**Final**

"Lokomotiv" - "Sərhədçi" - 3:1 (25:15, 25:16, 21:25, 28:26)

***"Sərhədçi" Olimpiya İdman Mərkəzi***

İlk oyun - 3:0

**3-cü yer uğrunda**

"Neftçi" - MOİK - 3:1 (25:22, 25:20, 22:25, 25:19)

***"Sərhədçi" Olimpiya İdman Mərkəzi***

İlk oyun - 3:1

# Seçmə mərhələ yarışları başlayıb

Aprelin 21-də Azərbaycanın bütün bölgələrini əhatə edən ağırlıqqaldırma üzrə respublika yarışlarının ikinci seçmə mərhələsi start götürüb. Yarışların təşkil olunmasında əsas məqsəd regionlarda atletlərin hazırlıq durumlarının yoxlanılması, ehtiyat qüvvənin nəzərdən keçirilməsi, güclü idmançıların seçilməsi, ağır atletika idman növünün şəhər, rayon, qəsəbə və kəndlərdə təbliği və inkişafı, idmançılar və məşqçilər arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi, idmançıların ustalıq səviyyəsinin artırılması və təkmilləşdirilməsindən ibarət olub.

Yarışlar Xırdalan, Lənkəran və Samux şəhərlərində keçirilir. Aprelin 21-22-də Xırdalanda təşkil olunan yarışda Sumqayıt, Xırdalan, Qobustan, Şamaxı, İsmayıllı və Bakıdan olan atletlər mübarizə aparıblar. Aprelin 25-26-da Lənkəranda Cəlilabad, Neftçala, Lənkəran, Lerik və Astaranı, aprelin 28-29-da isə Samuxda Goranboy, Gəncə, Samux, Qazax, Yevlax, Şəki və Qaxı təmsil edən atletlər körpücük üzərinə çıxacaqlar.

Yarış şəxsi xarakter daşıyır. Turnirdə yalnız texniki cəhətdən hazırlıqlı, yaşı ən azı 12 olan idmançılar mübarizə aparır. Mərhələ yarışlarında 2000-2006-cı illər və daha böyük təvəllüdlü kişilər və qadınlar, müvafiq yaş qruplarında qüvvələrini sınayırlar. Qaliblər "Sinkleyr" cədvəli üzrə müəyyən ediləcək.




Qeyd edək ki, mərhələ yarışları ildə 4 dəfə keçirilir.

## Ukrayna səfərində uğurlu nəticə

Yeniyetmə badmintonçularımız Ukraynanın Xarkov şəhərində keçirilən beynəlxalq turnirdə iştirak ediblər. Badmintonçularımızdan Məhəmmədəli Bayramlı - Sərxan Bağırov dueti 2007-2008-ci illər təvəllüdlü idmançılar arasında qoşa yarışlarda üçüncü yeri tutublar. Tuncay İsmayılov - İlfat Akçurin cütlüyü isə 2005-2006-cı illər təvəllüdlü badmintonçular arasında beşinci olublar. İlfat Akçurin oğlanların şəxsi yarışında da eyni sırada qərarlaşıb.

Qarışıq cütlüklərin yarışında isə Tuncay İsmayılov - Nərmin Şərifova dueti beşinci pillədə yer alıblar.

## Binə Atçılıq Mərkəzində növbəti cıdır yarışları keçirilib

Azərbaycan Respublikası Atçılıq Federasiyasının təşkilatçılığı ilə Binə Atçılıq Mərkəzində yerləşən hippodromda növbəti cıdır yarışları keçirilib.

Yarışda 3 yaş və yuxarı Ərəb atları 1600, 4 yaş və yuxarı Qarabağ və Dilbaz atları 1800, 3 yaş və yuxarı ingilis atları isə 1600 metr məsafədə güclərini sınayıblar.

Qeyd edək ki, üç qaçışdan ibarət olan yarış "Handikap" sistemi üzrə keçirilib.

Qadın həndbolçular arasında Azərbaycan çempionatında 19-cu turun oyunları keçirilib. "Qarabağ" "İdman Akademiyası"nı 36:30, "Nur" "Gənclər Birliyi"ni 33:10 hesabı ilə məğlub edib.

Turun mərkəzi oyununda isə "Azərsu" kollektivi nominal ev sahibi kimi "Azəryol" komandasını qəbul edib. Görüş gözlənilmədən qonaqların 36:23 hesablı asan qələbəsi ilə yekunlaşıb.

# "Azəryol" xal fərqini minimuma endirdi

Bu nəticələrdən sonra "Azərsu" 29 xalla turnir cədvəlində liderliyini davam etdirir. Son oyundan sonra liderlə xal fərqini minimuma endirən "Azəryol" (28 xal) ikinci yerdə qərarlaşıb. "Nur" həndbolçuları 25 xalla üçüncü pillədə, aktivində 23 xal olan "Qarabağ" isə dördüncü pillədə yer alıb. "Gənclər Birliyi" və "İdman Akademiyası" isə 4 xalla beşinci-altıncı yerləri bölüşürlər.

Qadın həndbolçular arasında ölkə birinciliyinin sonuncu - 20-ci turuna aprelin 26-da Mingəçevirdə mərkəzi oyunla start veriləcək. "Kür" Olimpiya İdman Mərkəzində yerli "Nur" həndbolçuları "Azəryol" kollektivini qəbul edəcək. Turun digər oyunları aprelin 28-də keçiriləcək. Son görüşlərdə "Gənclər Birliyi" "Qarabağ"la, "İdman Akademiyası" "Azərsu" ilə üz-üzə gələcək.

Kişi həndbolçular arasında final oyunları isə aprelin 29-da keçiriləcək.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

# Sağlamlıq üçün idmanın əhəmiyyəti böyükdür

***İdmanla məşğul olmaq ilk növbədə sağlamlığın təmin edilməsidir. Bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Bunu ölkəmizdə keçirilən mötəbər idman yarışları və atletlərimizin beynəlxalq aləmdə qazandığı uğurlar bir daha sübut edir. Şübhəsiz ki, böyük idmana gedən yol uşaq idmanından keçir. Təsadüfi deyil ki, bu gün Azərbaycanı bütün dünyada tanıdan idmançıların, demək olar ki, hamısı müxtəlif növlərlə məşğul olmağa hələ uşaq yaşlarından başlayıblar. Bu, bir daha onu göstərir ki, uşaq idmanının inkişaf etdirilməsi, həqiqətən, olduqca vacib məsələdir.***

Müstəqillik qazandığımız ilk illərdən etibarən Azərbaycanda idmanın inkişafına, o cümlədən uşaq idmanına xüsusi diqqət və qayğı ilə yanaşılır. Ümumilli lider Heydər Əliyev həmişə idmanın inkişafını özünə əsas prioritet seçmiş və nəticədə tədricən bu sahənin kütləviliyi daha da artmış, qazanılan nailiyyətlərin sayı çoxalmışdır. Hazırda isə idman və bədən tərbiyəsi ölkəmizdə ən çox inkişaf edən sahələrdən biridir. Şübhəsiz ki, bu, bizi sevindirməyə bilməz. Çünki idman ilk növbədə sağlamlıq və gümrahlıq mənbəyidir. Təcrübələr göstərir ki, idmanla məşğul olan gənclər fiziki cəhətdən daha möhkəm olur, hərbi-vətənpərvərlik ruhunda böyüyürlər.

Əlbəttə ki, respublikamızda idmanın kütləviləşməsində klubların, müxtəlif məktəblərin rolunu xüsusi ilə qeyd etmək lazımdır. Bu gün eyni zamanda yeniyetmə və gənclərin idmanla daha aktiv məşğul olmaları üçün bütün orta və ali təhsil müəssisələrində məşqçi-müəllimlər tərəfindən müxtəlif növlər üzrə məşqlər keçilir.

"Olimpiya dünyası" qəzeti "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" layihəsi çərçivəsində bu dəfə ölkədə fəaliyyət göstərən ali təhsil ocaqlarından biri olan Azərbaycan Dillər Universitetində (ADU) oldu. Məlumat üçün bidirək ki, bu təhsil ocağı öz fəaliyyətinə 1936-37-ci illərdə müstəqil kafedra kimi başlayıb. 1947-48-ci illərdə Bakı şəhərində APİ-nin Xarici Dillər fakültəsinin bazasında Pedaqoji Xarici Dillər İnstitutu açılıb. Respublika Maarif Nazirliyinin 14 may 1959-cu il tarixli əmri ilə Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu M.F.Axundov adına Rus dili və Ədəbiyyatı İnstitutu ilə birləşdirilib. Ulu öndər Heydər Əliyevin 13 iyun 2000-ci il tarixli fərmanı ilə Azərbaycan Dillər İnstitutunun fəaliyyəti genişləndirilərək Azərbaycan Dillər Universiteti adlandırılıb. Həmin vaxtdan sonra ali təhsil müəssisəsinin pedaqoji, ictimai, o cümlədən idman həyatında xüsusi canlanma hiss olunub. ADU-nun məzunları sırasında tanınmış insanlar çoxdur. Gənclər və idman naziri Azad Rəhimov, mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, BDU-nun professoru Fərman İsmayılov, dilçi alim Tofiq Abbasquliyev və digərləri məhz buranı bitiriblər. Hazırda universitetdə 11 kafedra fəaliyyət göstərir və tələbələr 12 müxtəlif ixtisas üzrə təhsil alırlar. Bir neçə il əvvələ kimi ADU-da da idman kafedraları fəaliyyət göstərirdi. Sonra idman kafedraları klublarla əvəz olundu. Hazırda ölkədə fəaliyyət göstərən yüzlərlə idman klubunda, cəmiyyətlərdə yeniyetmə və gənclər müxtəlif növlərin sirlərinə yiyələnməklə yanaşı, eyni zamanda öz sağlamlıqlarının qayğısına qalırlar. Bu işdə onlara həm də ali məktəblərin idman klubları kömək edir. ADU-nun idman klubunun sədri, sambo və cüdo üzrə idman ustası, respublikanın Əməkdar məşqçisi, dosent Ramil Mahmudovla görüşüb universitetin idman həyatı və bizi maraqlandıran digər suallarla bağlı fikirlərini öyrəndik. Ramil müəllim əvvəlcə, burada fəaliyyət göstərən idman klubunun strukturu barədə məlumat verdi: "Hazırda klubda ikisi Əməkdar məşqçi olmaqla, 7 məşqçi-müəllim çalışır. Həmin Əməkdar məşqçilərdən biri mən, digəri isə futbol üzrə məşqçi Şahin Hüseynlidir. 1978-ci ildən bu ali təhsil ocağında çalışıram. 2003-cü ildə idman kafedrasının müdiri vəzifəsinə təyin olumuşam. İndi isə klub müdiri kimi fəaliyyət göstərirəm. Klubumuzda cüdo, voleybol, badminton, stolüstü tennis, şahmat, futbol və aerobika üzrə məşqlər keçilir. Məlum olduğu kimi, oğlanlar daha çox cüdoya, qızlar isə aerobikaya maraq göstərirlər".



## Tələbələr arasında futbola maraq daha çoxdur

Bütün növlərdə kütləviliyin qənaətbəxş olduğunu vurğulayan Ramil müəllim qeyd etdi ki, tələbələr arasında futbola maraq daha çoxdur: "Futbol dünyada ən populyar idman növüdür. Gənclərin əksəriyyəti müxtəlif komandalara, futbolçulara azarkeşlik edirlər ki, bu da onlarda həmin növə marağı daha da artırır. Əslində tələbələrimizin futbolla məşğul olması bizi ancaq sevindirə bilər. Diqqətlə fikir versək, görərik ki, hər bir növlə məşğul olan idmançıların əksəriyyəti yaxşı futbol oynayır. Futbol idmançıda iradəni möhkəmləndirir, əzmkarlığı, prinsipiallığı, habelə, diqqəti, cəldliyi artırır. Təkmübarizlik növləri ilə məşğul olan idmançılar adətən həftədə bir dəfə futbol oynayırlar. Çünki onlar da futbolun faydalarını yaxşı başa düşürlər".

## "Fərdi inkişaf üçün rəqabət vacib şərtdir"

Müşahidələr göstərir ki, inkişafa gedən yol rəqabətdən keçir. Yəni komandalar, ayrı-ayrı idmançılar bir-birləri ilə rəqabət aparmalıdırlar ki, inkişaf sürətli, əldə olunan nəticələr daha yaxşı olsun. Bu barədə danışan idman klubunun müdiri söylədi ki, həqiqətən, rəqabətsiz inkişaf mümkün deyil. "Uzun illərdir ki, idmandayam. Əminliklə vurğulaya bilərəm ki, fərdi inkişaf üçün rəqabət vacib şərtdir. Bu, bütün zamanlarda belə olub və olacaq. İdmançı gərək rəqibinin səhvini bağışlamasın, rəqibi isə ruhdan düşmək əvəzinə, öz üzərində daha çox işləsin. Elə bu məqsədlə də biz hər il ənənəvi olaraq ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş universitetdaxili birinciliklər keçiririk. Bununla həm ümumilli liderin xatirəsini yad edir, həm idmançılarımızın potensial imkanlarını müəyyənləşdirir, eləcə də, sağlam rəqabət üçün şərait yaradırıq", - deyə təcrübəli mütəxəssis əlavə etdi.

## Qazanılan nailiyyətlər sevindiricidir

Ramil müəllimlə söhbət zamanı məlum oldu ki, tələbələrin klubda idmanla məşğul olmaları üçün lazımi şərait var. Eyni zamanda məşqçi-müəllimlər də kifayət qədər bilik və bacarıqlara sahibdirlər. Əlbəttə, belə olan halda qazanılan uğurlar da çox olacaq. Həmsöhbətimizin bildirdiyinə görə, ADU-nun cüdo komandası xüsusilə fərqlənir. Müxtəlif illərdə bu növ üzrə keçirilən universiada və birinciliklərdə həmişə adı çəkilən ali məktəbin cüdoçuları komanda hesabında mükafatalayiq yerlər tutublar. Həmçinin cüdo üzrə üç il dalbadal universiadanın qalibi olan Aydın Ələkbərov hazırda ADU-nun 4-cü kurs tələbəsidir. "1980-ci ildən komandalarımız universiadalarda iştirak edir və həmin vaxtdan həmişə yaxşı nəticələr qazanıb. Nailiyyətlərimiz davam edir. Məsələn, 2015-2016-cı tədris ilində ali məktəblər arasında keçirilən respublikadaxili birinciliklərdə komandalarımız layiqincə çıxış ediblər. Belə ki, cüdo komandamız üçüncü, şahmatçılarımız və stolüstü tennisçilərimiz altıncı, dama və voleybol komandalarımız beşinci, futzalçılarımız isə dördüncü yerə sahib çıxıblar. 2016-2017-ci tədris ilində isə cüdoçularımız yenə də 23 komanda arasında üçüncü yerə çıxıblar. Həmçinin futzal komandamız bütün ali məktəbləri geridə qoymaqla çempionluq sevinci yaşayıb. Oğlanlardan və qızlardan ibarət voleybol komandalarımız müvafiq olaraq beşinci, dördüncü yerlərə sahib çıxıblar. Bundan başqa, İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsi ilə "İrəli" İB-nin birlikdə keçirdikləri turnirdə həm oğlan, həm də qızlardan ibarət komandalarımız birinci yerə layiq görülüb. Futbolçularımız Təhsil Nazirliyi və Respublika Həmkarlar Konfederasiyasının təşkil etdiyi "Tələbə kuboku" turnirinin qalibi olublar. Futbol komandamız həm də Nərimanov Rayon İcra Hakimiyyəti üzrə YAP ulu öndər Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr etdiyi yarışda birincilik qazanıblar. Nəsimi rayonu İcra Hakimiyyətinin 28 May Respublika Gününə həsr etdiyi turnirdə komandamız yenə də ən yaxşı nəticə əldə edib", - deyə müsahibimiz məlumat verdi.

## Universitetin məzunları arasında dünya çempionları da var

Mütəxəssislər də təsdiq edirlər ki, şahmat fiziki idman növü olmasa da, tələbələr üçün çox əhəmiyyətlidir. Belə ki, bu növlə məşğul olan gənclər digər həmyaşıdlarına nisbətən daha diqqətli olur, hadisələrə daha dəqiq və sürətli reaksiya verir, habelə öz zehni qabiliyyətləri ilə seçilirlər. Yeniyetmə və gənclər üçün şahmatla məşğul olmağın vacibliyindən danışan Ramil müəllim qeyd etdi ki, ADU-da tələbələr bu növə xüsusi maraq göstərirlər. Ali təhsil müəssisəsində həm oğlanlar, həm də qızlar şahmatla həvəslə məşğul olurlar. Əməkdar məşqçinin söylədiyinə görə, şahmat üzrə dünya çempionu Harri Kasparov məhz bu universitetdə təhsil alıb. Həmçinin gənclər arasında dünya çempionu Firuzə Vəlixanlı da ADU-nun məzunudur. Təcrübəli mütəxəssisin fikrincə, həmin zəka sahiblərinin qazandıqları uğurlar da tələbələrə əlavə stimul verir.

## "İdmanda kütləvilik əsas şərtdir"

İdmanla məşğul olan yeniyetmə və gənclər daha çevik olur, həmçinin düzgün bədən qamətləri ilə seçilirlər. Yəni idmanla məşğul olan yeniyetmə və gənclər nə qədər çox olarsa, cəmiyyət də bir o qədər sağlam olar. Bu barədə danışan Ramil Mahmudov da belə hesab edir ki, idmanda kütləvilik maksimum dərəcədə çox olmalıdır. "İdman sağlamlıq olmaqla yanaşı, həm də insanın xarekterini formalaşdırır. Məhz idman və bədən tərbiyəsinin sayəsində daha dözümlü, əzmkar olmaq mümkündür. Fiziki cəhətdən sağlam olan hər kəs xəstəliklərə qarşı asanlıqla sinə gərə bilir. Bu gün müharibə şəraitində yaşayırıq, torpaqlarımızın 20 faizi işğal altındadır. Nəzərə almaq lazımdır ki, bu günün yeniyetmələri sabahın əsgərləri, sərhəd keşikçiləridirlər. Fiziki cəhətdən güclü olmayan əsgər necə əlində ağır avtomatla düşmən üzərinə qaça bilər? Tələbələrimiz sağlam, güclü böyüməlidirlər. Bunun üçün isə onlar idmanla məşğul olmaqla yanaşı, eyni zamanda zərərli vərdişlərdən uzaq durmalıdırlar. Tələbələrimlə tez-tez bu barədə söhbət edir, onları bu və ya digər zərərli vərdişlərdən uzaqlaşdıraraq, məşqlərə cəlb etməyə çalışıram və hər dəfə buna nail olanda o qədər sevinirəm ki... Tələbələrə idmanın faydaları haqqında danışır, Olimpiya çempionlarımızı və mükafatçılarımızı nümunə göstərirəm. Unutmaq olmaz ki, bu günün gənci sabahın ailə başçısıdır. Bu da o deməkdir ki, bir gəncin sağlam böyüməsi bir ailənin sağlam olması deməkdir. Biz məşqçi-müəllimlər əlimizdən gələn hər şeyi edirik. Amma gərək tələbələr də bir az həvəsli olsunlar. Əlbəttə, kütləviliyin azalmasının bir səbəbi də idman kafedralarının klublarla əvəz olunmasıdır. Belə ki, tələbə-idmançı əvvəl heç olmasa həftədə 1-2 dəfə məcburi də olsa idman dərslərində iştirak edirdisə, indi məşqlərə gəlmək istəmir. Çünki müstəqildirlər və həvəsləri yoxdur", - deyə təcrübəli mütəxəssis bildirdi.

## Uşaqlarda idman sevgisi ailədə formalaşır

Mütəxəssislər də təsdiq edirlər ki, yeniyetmə və gənclərin hələ uşaq yaşlarından idmana başlaması daha məqsədəuyğundur. Çünki uşaq yaşlarında bədən yenicə formalaşmağa başlayır, elastik olur. Tədricən isə bədən öz elastikliyini itirir və bu da müxtəlif məqamlarda idmançıya mane olur. Dosent, həmçinin əlavə etdi ki, məhz bu məqamı nəzərə alaraq uşaqlarda idman sevgisi ailədə formalaşdırılmalıdır. Bu məsələdə valideynlərin üzərinə böyük iş, məsuliyyət düşür. Sonra isə uşaqlar orta və ali məktəblərdə idmanla məşğul olmalıdırlar. Təcrübələr göstərir ki, bu gün tanınmış idmançıların əksəriyyəti orta və ali məktəblərdə fərqlənən yeniyetmə və gənclər olublar. "Uşaqlar bizim gələcəyimizdir. Yaxşı olar ki, onlar yaşlarından idmanla tanış olsunlar. Əslində bu, kifayət qədər vacib məsələdir. Çünki idmançı idman şəraiti ilə, məşqçisi ilə nə qədər tez tanış olarsa, bu, onun üçün bir o qədər yaxşıdır. Nadir hallarda ailələrdə uşaq özü kiçik yaşlarından idmanla məşğul olmağa təşəbbüs göstərir. Əlbəttə, bu da təbiidir. 5-6 yaşlı uşaq idmanın mahiyyətini necə dərk etsin? Elə buna görə də onları idmana meyilləndirmək xeyli dərəcədə valideynlərdən asılıdır. Valideynlər öz övladlarında idmana maraq yaratmalıdırlar. Hansı idman növü ilə məşğul olmağı isə yaxşı olar ki, uşaq özü müəyyənləşdirsin. Əlbəttə, bütün növlərə eyni yaşdan başlamaq da düzgün deyil. Fikrimcə, uşaq idmana üzgüçülük, gimnastika, şahmat, akrobatika kimi növlərlə başlasın, sonradan arzu etdiyi növü seçsin. Təkmübarizlik idman növləri ilə məşğul olan elə idmançılar var ki, illərdir adi akrobatik hərəkətləri edə bilmirlər, sürətli düşünməyi bacarmırlar. Bax, elə bu səbəbdən də yaxşı olar ki, uşaqlar idmana akrobatika və şahmatla başlasınlar. Üzgüçülük isə bütün yaş qrupları üçün ən ideal sayılan növlərdəndir. Faydalarını saymaqla bitirmək olmaz", - deyə Ramil müəllim əlavə etdi.

## "Əsl idmançının hədəfi olmalıdır"

Təcrübələrdən belə məlum olur ki, bəzi hallarda idmançı ilə məşqçi arasında anlaşılmazlıqlar baş verir. Nəticədə idmançı müəllimindən, idmandan soyuyur və məşqi atır. Bəs, görəsən, günah hansı tərəfdədir? Ramil müəllim belə düşünür ki, o məşqçi bacarıqlı məşqçidir ki, həm peşəkar olsun, həm də psixologiyanı yaxşı bilsin: "Məşqçilik idmançı olmaqdan daha çətin və məsuliyyətlidir. Təsadüfi deyil ki, məşqçilərə bir çox hallarda məşqçi-müəllim deyirlər. Biz həm də yaxşı psixoloq olmalı, hər idmançı ilə öz xarakterinə uyğun rəftar etməliyik. Elə idmançı var ki, gərək onu məşq etməyə məcbur edəsən, amma bəzilərində bu, mənfi nəticə verir, onlarla mülayim danışmaq lazımdır. Ancaq hər bir halda gərək tələbədə həvəs olsun, o, hansısa kiçik bir problemi bəhanəyə çevirməsin. Şükürlər olsun ki, indi idmançılar üçün hər bir şərait yaradılıb. Lakin əvvəllər, keçən əsrin ikinci yarısında belə deyildi. Buna baxmayaraq, biz əzmlə məşq edir, problemlər qarşısında təslim olmurduq. Əsl idmançının bir hədəfi olmalıdır və o, həmin hədəfə çatana kimi mübarizə aparmalıdır".

Psixologiyadan söz düşmüşkən, bəzi hallarda idmançının yarışda uduzmasının səbəbi azarkeş dəstəyinin az olması və ya ümumiyyətlə olmamasıdır. İdmançı fiziki, texniki-taktiki cəhətdən mübarizəyə tam hazır olsa da, məhz azarkeş dəstəyinin olmaması ona mənfi təsir göstərir və məğlubiyyətə səbəb olur. Ramil müəllim bu barədə danışarkən bildirdi ki, azarkeş dəstəyi idmançı üçün çox vacibdir və bu, birbaşa psixologiya ilə bağlı bir amildir. "Elə idmançı var ki, məşqdə rəqibi ilə çox yaxşı güləşir. Amma yarışa çıxanda məğlub olur. Əlbəttə, yarışa çıxanda onun gücü azalmır və ya bildiyi fəndlər yadından çıxmır. Sadəcə azarkeş dəstəyinin kifayət qədər olmaması idmançıya mənfi təsir edir. O, tribunada onu dəstəkləməyə gələnlərin rəqib azarkeşlərindən az olduğunu görəndə istər-istəməz ruhdan düşür. Bu təbii ki, idmançının yarışa psixoloji cəhətdən tam hazır olmaması ilə bağlıdır. İdmançı heç vaxt özündənrazı olmalı deyil, daim öz üzərində çalışmalı, eyni zamanda özünə inanmalıdır. Bu iki nüansı, yəni özündən razılıqla özünə inamı səhv salmaq olmaz", - deyə Ramil müəllim qeyd etdi.

## Təhsil və idman paralel aparılanda...

Bəzən ailələrdə övlad və valideyn arasında mübahisələr yaranır. Belə ki, övlad idmanla məşğul olmaq istəyir, valideynlər isə onun bu seçiminə qarşı çıxaraq təhsildən yayınmasını istəmirlər. Valideynlər düşünürlər ki, övladları idmanla məşğul olsalar, təhsilə kifayət qədər vaxt ayıra bilməyəcəklər. Bəzən isə əksinə olur. Övlad oxumağa daha çox maraqlı olduğu halda, valideynləri uşaqlarını idmançı kimi görmək istəyirlər. Bəs görəsən, idmanla təhsil, həqiqətən də, paralel inkişaf edə bilərmi? Müsahibimizlə söhbət zamanı bu suala da aydınlıq gətirməyə çalışdıq. "Peşəkar idmanı və təhsili paralel olaraq davam etdirmək çətin məsələdir. Hər idmançı bunu bacarmır. Yəni söhbət Avropa, dünya çempionatları və Olimpiya Oyunlarında mükafat qazanan atletlərdən gedir. Çünki idmançı müntəzəm olaraq təlim-məşq toplanışlarında, yarışlarda iştirak etdiyinə görə təhsilə kifayət qədər vaxt ayıra bilmir. Lakin təhsil alan, dərslərini əla oxuyan hər bir şagird, tələbə həm də öz sağlamlığının qayğısına qala, mükəmməl bədən quruluşuna sahib ola bilər. Bunun üçün həftədə üç dəfə gündə 1,5-2 saat məşq etmək kifayətdir. "Təhsil, ya idman" dilemması qarşısında qalıb, iki alternativdən birini seçən yeniyetməni başa düşmək olar. Hər ikisi Azərbaycanın gələcəyidir. Lakin elələri də var ki, vaxtlarını hədər yerə keçirir, gənclik illərinin qədrini bilmirlər. Bu, çox pis haldır, hətta yolverilməzdir", - deyə Əməkdar məşqçi vurğuladı.

Nəticələrdən, əldə olunan nailiyyətlərdən də göründüyü kimi, Azərbaycan Dillər Universiteti öz idman nailiyyətləri ilə fərqlənən ali təhsil müəssisələrdəndir. Bu da həmin ali təhsil məktəbində idmana və bədən tərbiyəsinə göstərilən yüksək diqqət və qayğıdan qaynaqlanır. Ümid edirik ki, bu universitetdə gələcəkdə də idmana maraq böyük, əldə edilən uğurlar daha çox olacaq.

***Kənan Novruzov***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

# F U T B O L



## “Qarabağ” ardıcıl 5-ci dəfə Azərbaycan çempionu oldu

Topaz Premyer Liqasında XXIV tura yekun vurulub. I tur “Qarabağ” klubunun Azərbaycan Premyer Liqasında vaxtından əvvəl çempionluğunu rəsmiləşdirməsi ilə əlamətdar olub. Ağdam təmsilçisi buna 24-cü turda “Sumqayıt”ı 1:0 hesabı ilə məğlub etməklə nail olub. Səfərdə Dani Kintananın 34-cü dəqiqədə cərimə zərbəsindən vurduğu qolla qalib gələn Qurban Qurbanovun komandası xallarını 59-a yüksəldib. Bununla da “Qarabağ” mövsümün başa çatmasına 4 tur qalmış 42 xalla 2-ci pillədə qərarlaşan “Qəbələ” üçün əlçatmaz olub. Bu, Ağdam komandasının ardıcıl 5-ci, ümumilikdə isə 6-cı çempionluğu kimi tarixə düşüb.

Eyni saatda start götürən “Neftçi” - “Qəbələ” görüşündə isə meydan sahibləri qalib gəlib. Ruslan Abışovun 4-cü dəqiqədə vurduğu qolla Azərbaycan Kubokunun yarımfinalında uduzduğu rəqibini üstələyən “ağ-qaralar” xallarını 37-yə çatdırıblar. “Neftçi” bu qələbə ilə “Zirə”ni keçərək, 4-cü pilləyə yüksəliblər.

İlk oyun günündə “Keşlə” “Zirə”ni 2:1 hesabı ilə məğlub edib. “Bayıl Arena” stadionunda keçirilən “Səbail” - “Kəpəz” qarşılaşmasında isə qalib müəyyənləşməyib -1:1.

## Ölkə kubokunun finalçıları müəyyənləşib

*Futbol üzrə Azərbaycan Kuboku uğrunda yarışın finalçıları müəyyənləşib. Yarımfinal mərhələsinin ilk cavab oyununda “Sumqayıt” komandası “Keşlə”ni qəbul edib.*

*“Kapital Bank Arena”da keçirilən matçın ilk hissəsində qapılara qol vurulmayıb. Matçın ikinci hissəsində hesab açılıb. Sezar Meza Kolli görüşün 62-ci dəqiqəsində “Keşlə”ni hesabda önə çıxarıb. Bu qoldan iki dəqiqə sonra Cavid İmamverdiyev hesabı bərabərləşdirib - 1:1. Oyun bu hesabla da başa çatıb.*




Xatırladaq ki, bu komandalar arasında keçirilən ilk oyunda “Keşlə” klubu “Sumqayıt”a 1:0 hesabı ilə qalib gəlmişdi.

Beləliklə, iki oyunun nəticəsinə görə “Keşlə” Azərbaycan kubokunun finalına yüksəlib.

Yarımfinal mərhələsinin ikinci cavab oyununda “Neftçi” və “Qəbələ” klubları üzə gəliblər. “Bakcell Arena”da keçirilən matçda hesabı meydan sahibləri açıblar. Soni Mustivar qarşılaşmanın 10-cu dəqiqəsində fərqlənib. Bu qoldan sonra təzyiqi artıran “Qəbələ” Baqali Dabonun 20-ci və 30-cu dəqiqələrdə vurduğu qolla hesabda önə çıxıb. İlk hissə bu hesabla yekunlaşıb.

Fasilədən sonra “Qəbələ” hesab arasındakı fərqi iki topa çatdırıb. Matçın 61-ci dəqiqəsində Cavid Hüseynov 11 metrlik cərimə zərbəsini dəqiq yerinə yetirib - 3:1. Oyun bu hesabla da başa çatıb. “Qəbələ” komandası ilk oyunda doğma meydanda “Neftçi” klubuna 1:2 hesabı ilə məğlub olsa da, iki qarşılaşmanın yekununa görə ümumi hesabda qalib gələrək (4:3) finala yüksəlib.

Beləliklə, mayın 28-də keçiriləcək Azərbaycan kubokunun finalında “Keşlə” və “Qəbələ” komandaları qarşılaşacaq.




## Dünya çempionatına velosipedlə gedən azarkeş

Qahirəli futbol azarkeşi Məhəmməd Nufal ölkəsinin dünya çempionatında oynunu izləmək üçün velosipedlə səyahətə başlayıb. 24 yaşlı Nufal səyahətə çıxmazdan əvvəl yaşadığı şəhərin “Təhrir” meydanında öz yaxınları və anası ilə təntənəli surətdə vidalaşıb. Bununla da o səyahətinə start verib. Hesablamalara görə, Nufal Rusiyaya çatmaq üçün 65 gün ərzində 5 min kilometr məsafə qət edəcək. O seçdiyi marşrutda İordaniya, Bolqarıstan, Ruminiya, Moldova və Ukraynadan keçəcək. Misirli səyahətçi əvvəl marşruta Suriya və İraq variantını əlavə etsə də, məlum səbəblərdən o bu ölkələrdən imtina etməli olub. Nufal özü ilə birlikdə çadır, velosiped üçün ehtiyat hissələri, akkumulyator, ehtiyat telefon və əlavə enerji daşıyıcısı götürüb. O, düşünür ki, səfər çərçivəsində gecələr hosteldə



və yerli əhalinin evində qalacaq. Nufal bu barədə deyib: “ Mənim üçün əsas səyahətdir, nəticə haqqında heç nə düşünmürəm. Dünya çempionatında iştirak etmək fikri sadəcə olaraq bir bəhanədir. Əgər istəsə idim, Rusiyaya təyyarə ilə də gedə bilərdim. Hesab edirəm ki, səyahət ərzində yeniliklərlə qarşılaşacağam. Maraqlı hadisələrlə üzləşmək ehtimalım da var”.

## “Fironlar” öz geyimi ilə dünyanı heyrətə salacaqlar

Misir yığması geydiyi forma ilə milyonların rəğbətini qazanacaq

28 ildən sonra dünya çempionatının final mərhələsinə vəsiqə qazanan Misir yığması yeni formasını ictimaiyyətə təqdim edib. Yeni futbol formasının üzərində Misir mədəniyyətinin




cizgiləri öz əksini tapıb. “Nike” şirkətinin istehsal etdiyi futbol forması hazırlanarkən 10 dizaynerin və rəssamın ümumi rəyi nəzərə alınıb. 29 yaşlı misirli dizayner Əkrəm Hamadənin verdiyi eskizlər isə əsasən köynək üçün bəyənilib. Belə ki, köynəyin üzərində qədim Misir heroqlifləri həkk olunub. Bu barədə Əkrəm bunları deyib: “Uzun müddətdir bu eskizlər üzərində işləyirəm. Çalışırdım ki, ölkəmi dünya çempionatında təmsil edən futbolçular geydikləri geyimləri ilə digərlərindən fərqlənsinlər. Köynəkdəki heroqlifləri ona görə seçdim ki, Misir mədəniyyəti yenidən dünyanın diqqətini özünə cəlb etsin. Fikrimcə, dünya çempionatından sonra hamı Misirə axışacaq bu heroqliflərin mənşəyi barəsində daha çox məlumat toplamağa çalışacaq. Dünya çempionatının oyunlarında Misir yığması həm oyunu ilə həm geydiyi forma ilə milyonların rəğbətini qazanacaq.

## Dünya çempionatında işləyəcək 13 videohakim açıqlanıb

FİFA Hakimlər Komitəsi 2018-ci il dünya çempionatında çalışacaq videoassistentlərin siyahısını açıqlayıb. Belə ki, VAR sistemində 13 hakimin işləyəcəyi bildirilib. Videoassitent hakimlər arasında Abdulrəhman əl-Cassim (Qətər), Mauro Valyano (Argentina), Yeri Varqas (Boliviya), Vilton Sampayo (Braziliya), Pavel Qil (Polşa), Bastian Dankert, Feliks Zvayer (Almaniya), Artur Soareş, Tyaqo Martinş (Portuqaliya), Massimiliano İrrati, Daniele Orsato, Paolo Valeri (İtaliya) və Danni Makkeli (Hollandiya) yer ayrılıb.

Dünya çempionatı 14 iyun - 15 iyul tarixlərində Rusiyanın 11 şəhərində keçiriləcək.

## Cənubi Koreya millisi üçün nə qədər pul ayrılıb?

Cənubi Koreya millisinin 2018-ci il dünya çempionatına çıxmasına görə futbolçulara ayrılan mükafatın həcmi açıqlanıb. Yerli federasiya yığma üzvlərinə 2,4 milyard von (2,24 mln dollar) ödənildiyini bildirilib. Dünya çempionatının seçmə mərhələsində ən azı 1 dəfə milliyə dəvət



alan istənilən futbolçuya bu mükafatdan pay çatacaq. Eyni zamanda futbolçular komandanın mundiala vəsiqə qazanmasında oynadığı rola görə 4 qrupa bölünəcək. Ən aparıcı oyunçular şəxsi büdcəsini 80 mln von (75 min dollar), 2-ci qrup 60 mln von (56 min dollar), 3-cü qrup 40 mln von (37 min dollar), son qrupa daxil olanlar isə 30 mln von (28 min dollar) zənginləşdirəcək.

## Mütəxəssis rəyi

## Azərbaycanlı referinin Gənclər Liqasına təyinatı hakimlik məktəbimizin sabahına inamdır

***UEFA Gənclər Liqasında “Mançester Siti” - “Barselona” klublarının görüşünü izlədim. Tək iki böyük klubun gələcək potensialına görə yox, Azərbaycan hakimlik məktəbi təmsil olunduğu üçün... Qarşılaşmanı Əliyar Ağayevin başçılıq etdiyi hakimlər briqadası idarə edirdi. Azərbaycan futbolu, hakimlik adına gözəl məqamdır. Perspektiv, inkişaf baxımından növbəti tramplin rolunu oynayan görüşlərdən biri idi.***

***Gənclərin olmasına baxmayaraq görüş sürətli başladı. Seleksiya işinin göstəricisi olaraq bütün dünyadan yığılan istedadlı futbolçular özlərini göstərmək üçün əzmkar futbol sərgiləyirdilər. Artıq ilk 30 dəqiqəyə qapılara 5 top vurulmuşdu. Hər iki komanda açıq, hücum futboluna üstünlük verirdi.***

***“Barselona” daha diqqət çəkirdi. Əsas komandanın oyun üslubu ilə eyni idi. Klubda aparılan ümumi sistem qabarıq görünürdü.***

Əliyar Ağayev görüşə inamla başladı. Artıq ilk dəqiqələrdə “Mançester Siti”nin hücumu zamanı Qonsalezi əl hərəkətinə görə “sarı” kartla cəzalandırdı. Doğru qərar idi. Bununla hər iki komandaya meydanda hakim olduğunu göstərdi. İstər milli, istərsə də klub səviyyəsində aparıcı futbol ölkələrinin görüşlərində bu amil böyük önəm daşıyır. Azərbaycan kimi dövlətlərdən hakimlərin adını eşidəndə, görəndə təəccüblənir, qəbul etmək istəmirlər. Meydanda dərhal hakimliyini sübuta yetirməli, psixoloji olaraq qəbul olunmağını təmin etməlisən.

“piyada” oyun öz təsirini göstərir, sürətli qarşılaşmalar zamanı özünü biruzə verirdi.

Hakim tək qərar verdiyi anda deyil, qarşılaşmanın ümumi ruhuna uyğun iti düşünməli, oyunu oxumağı bacarmalıdır. Belə olduğu halda meydanda hərəkətləri, yer seçimi daha mükəmməl olur. Əliyar bu baxımdan öz üzərində çalışmalı, idarə etdiyi görüşləri davamlı təhlil etməlidir. Eynilə cərimə zərbələri zamanı “canlı səddi” qurarkən, spreydən istifadə edərkən topu nəzarətdən qaçırmamalıdır. Top oyunda olmasa da belə, hakim mütləq topu görməli, futbolçular da bunu hiss etməlidir. Əks halda top önə çəkilə, hakim epizodu görmədən tez başlanıla, buna uyğun sanksiyaların tətbiqində çətinliklər yarana bilər. Baş hakimin meydanda olan inamı, mimikaları çox yaxşıdır. Bir qədər monoton qaçış və jestlər üzərində də çalışılmalı, təkmilləşdirilməlidir.

Köməkçilərin idarəçiliyi də müsbət idi. Əsasən də oyundankənar vəziyyətlər ustalıq və dəqiqliklə qeydə alınırdı. Bir epizodda köməkçinin gözü önündə qayda pozuntusunu Əliyar Ağayev pauza ilə özü qeydə almağa məcbur oldu. Köməkçilərlə sinxron əlaqə qaydasında olmalı və onlar da baş hakimə vaxtında yardım etməlidirlər. Hiss olunurdu ki, fasilədə epizod müzakirə olunub. İkinci hissədə 1-ci köməkçi artıq qayda pozuntularına vaxtında reaksiya verirdi. Fikir ayrılığı və ya anında qərarın olmaması oyunun gedişində komanda, məşqçi, futbolçu, azarkeşlərdə hakimlərə olan inamı




Qarşılıqlı qollarla keçən birinci hissədə elə qeyd etdiyim Qonsalez kobudluğa görə 2-ci sarı vərəqə ilə cəzalandırıldı. Əliyar Ağayevin göstərdiyi qırmızı kart ingilisləri azlıqda qoydu.

“Barselona” rəqibin özünə gəlməsinə kimi ardıcıl 2 topla hesabı ilk hissədə 5:2-yə çatdırdı.

İkinci hissədə “Mançester Siti” rəqibin arxayınlığından istifadə edərək hesabı minimuma endirdi. Oyunun son dəqiqələri hakimlər üçün də çətin idi. Səhv etmək olmazdı.

1-2 xırda folu çıxmaq şərtilə Əliyar ikili mübarizələrdə qayda pozuntularını yaxşı görür, sərt oyunla kobudluğu düzgün ayırd edirdi. Köməkçilərini daimi diqqətdə saxlayır, vizual əlaqəsi də əla idi. Komandaların mövqe hücumlarında baş hakim özünü daha rahat hiss edirdi. Oyun üstünlüyü prinsipindən də düzgün yararlanırdı. İnkişafının üst səviyyədə təmin olunması üçün daha ciddi çalışmalıdır.

Dayaq bölgəsində top itirilərkən əks hücumlar zamanı və mərkəzə sürətli ötürmələr olarkən oyunu oxumaqda bir qədər çətinlik çəkirdi. Bu da qaçışına, mövqe seçiminə mane olur, hakimlik manerasına, sərbəstliyinə problem yaradırdı. Azərbaycan çempionatındakı əksər görüşlərdəki azalda bilər. Köməkçilərlə əlaqə tək texniki vasitələrlə deyil, ümumi hakimlik baxımından da mükəmməl olmalıdır.

Əliyar Ağayevin Gənclər Liqasında 1/2 final görüşünü idarə etməsi tarixi ənənələri olan hakimlik məktəbimizin sabahına inamdır. Nəhəng klubların əsas heyətlərinin qarşılaşmaları çox da uzaqda deyil. Əsas arxayınlaşmamaq, idarəçiliyi təkmilləşdirmək yaxın aylar, illərdə olacaq daha məsuliyyətli, çətin oyunlara hazır olmaqdır. Bunun üçün UEFA-nın dəstəyi, istənilən şərait var.

Gənclər arasında hakimlərimizin yarımfinalları kimi yığma, klublarımızın yeniyetmə və gənclərinin də Avropada nəticələr qazanması lazımdır. Bu günün gəncləri sabahın millisinin potensial futbolçularıdır.



***Tahir Süleymanov, futbol mütəxəssisi***



# DÜNYA İDMANI

## Ən çox satılan köynək

NBA-nın tanınmış basketbolçularına məxsus maykaların satışına görə Stefan Karri fərqlənib. Bu mövsümdə "Qolden Steyt Uorriorz" klubunun təmsilçisinin maykası ötən ilin oktyabr ayından bu ilin aprelinə qədər daha çox satılıb.

NBA-nın ulduz idmançısı Lebron Ceymsin ("Klivlend Kavalers") və Stefan Karrinin komanda yoldaşı Kevin Dyurantın maykaları da ən çox satılanlar arasındadır.

1. Stefan Karri ("Qolden Steyt Uorriorz")
2. Lebron Ceyms ("Klivlend Kavalers")
3. Kevin Dyurant ("Qolden Steyt Uorriorz")
4. Yannis Antenokumpo ("Miluoki Baks")
5. Kayri İrvinq ("Boston Seltiks")
6. Rassell Uestbruk ("Oklahoma-Siti Tander")
7. Kristaps Porzinqis ("Nyu-York Niks")
8. Coel Embid ("Filadelfiya Seventi Siksers")
9. Ceyms Xarden ("Hyuston Rokets")
10. Ben Simmons ("Filadelfiya Seventi Siksers")



## Entoni Çeşua: "Vladimir Kliçkonu yanımda görmək istəyirəm"

WBA Super, WBO, İBF və İBO versiyaları üzrə dünya çempionu Entoni Coşua növbəti döyüşündə keçmiş dünya çempionu Vladimir Kliçkonu öz yanında görmək istədiyini bildirib.

"Sky Sports" nəşrinin yazdığına görə, məşhur boksçu deyib: "Vladimir Kliçkonu rinqdə yanımda görmək istəyirəm. Çünki əminəm ki, Kliçkonun təcrübəsi mənim çox köməyimə gələcək. O, əvəzolunmaz və təcrübəli boksçudur. On il ərzində boksda lider idmançıdan çox şey öyrənə bilərəm. Onun döyüşdə yanımda olmasını istəyirəm".

## Kimlər məşqçi olacaq?

Raul, Xabi Alonso və Viktor Valdes də daxil olmaqla, 16 sabiq futbolçu xüsusi kursa cəlb olunublar. Həmin oyunçulara kursun sonunda UEFA-nın "A" və "B" məşqçi lisenziyası təqdim olunacaq.

Furbolçulara kursda idarəetmə, qidalanma və psixologiyadan dərs keçiləcək. 6 aylıq kursdan sonra müdavimlər məşqçilik fəaliyyətinə başlaya biləcəklər.

Luis Qarsiya, Albert Riera, Markos Senna, Joan Kapdevilya, Mikel Alonso və Juliu Baptista kimi tanınmış futbolçular da bu kursun tələbələridirlər.

## Ronaldu hələ də unutmur



"Real" klubunun ulduz oyunçusu Kriştano Ronaldu 3 il bundan əvvəl ayrıldığı rusiyalı model İrina Şeyki hələ də sevdiyini etiraf edib. Bu barədə Böyük Britaniyanın "The Sun" nəşri məlumat yayıb.

32 yaşlı portuqaliyalı futbolçu keçmiş nişanlısını hələ də sevdiyini və onun həyatı ilə maraqlandığını etiraf edib. Baxmayaraq ki, Kriştano Ronaldu hazırda ispaniyalı Corcina Rodriqeslə bir yerdədir və ondan bir qız övladı var. Bundan başqa onun daha 3 övladı (2 oğlan və 1 qız) var. Halbuki Ronaldo əvvəllər uşaq istəmədiyindən İrina Şeykdən ayrılıb. Rusiyalı modelin Hollivudun kino ulduzu Bredli Kuperdən bir qız övladı var.

## "Ulduzlar"ın iştirakı ilə xeyriyyə matçı keçirilib

Cenevrədə BMT-nin və UEFA-nın təşkilatçılığı ilə xeyriyyə matçı keçirilib.

"Stade de Geneve" arenasında təşkil olunan görüşdə "Fiqo və onun dostları" ilə "Ronaldinyo və onun dostları" komandaları qarşılaşıblar. Fransalı Didye Deşamın baş məşqçisi olduğu "Fiqu və onun dostları" komandasının heyətində Luiş Fiqu, Dida, Vitor Baiya, Miçel Salqado, Frank de Bur, Rio Ferdinand, Kristian Kivu, Deyan Stankoviç, Rober Pires, Yari Litmanen, Kristian Karambeu, Andrea Pirlo, Raul Qonzales, Robbi Kin, Kelli Smit və Nunu Qomeş yer alıblar.



İtaliyalı Karlo Ançelottinin rəhbərlik etdiyi "Ronaldinyo və onun dostları" komandasının heyətində isə Ronaldinyo ilə yanaşı, Devid Ceyms, Antonios Nikopolidis, Culiano Belletti, Kafu, Edmilson, Keysi Stouni, Erik Abidal, Maykl Essyen, Yuri Corkayef, Qaiska Mendyeta, Ronald de Bur, Henrik Larsson, Aleksandr Frey, Patrik Klyuvert və Seliya Şaşiç mübarizə aparıblar.

Görüşü dünya şöhrətli sabiq italiyalı referi Pyerluici Kollina idarə edib.

Qeyd edək ki, qarşılaşma Fiqunun komandasının 4:3 hesabılı qələbəsi ilə yekunlaşıb.

## *Şarapova yenidən Birmingemdə*



Rusiyalı tennsiçi Mariya Şarapova mükafat fondu 510 min funtdan artıq olan WTA-nın Birmingem turnirində yarışacaq.

Tennisçi bununla bağlı deyib: "Yenidən Birmingemdə yarışacağım üçün çox xoşbəxtəm. Bu şəhərlə bağlı gözəl xatirələrim var. İnanıram ki, hər şey yaxşı olacaq".

Təşkilatçılar Mariya Şarapovadan başqa turnirə Petra Kvitova, Yoxann Kont və Naomi Osaka kimi tanınmış idmançıları dəvət ediblər. Birmengem tirniri bu il iyunun 18-dən 24-dək təşkil ediləcək.

## Formula-1-də dəyişiklik gözlənilir

Formula-1 komandası Beynəlxalq Avtomobil İdmanı Federasiyası (FİA) ilə birlikdə yürüşlərin sayını artırmağı planlaşdırır.

FİA yürüşlərin sayının artırılması ilə bağlı bolidlərin aerodinamikasında dəyişikliklər etmək üçün müəyyən təkliflər irəli sürüb.

Aprelin 30-dək 2019-cu il üzrə bolidlərin aerodinamikası ilə bağlı texniki reqlament dəyişiklikləri ictimaiyyətə təqdim olunacaq.

## Münasibətlərin pisləşməsi transferə yol açıb



İngiltərənin "Mançester Yunayted" klubu yay transfer çərçivəsində yarımmüdafiəçisi Pol Poqba ilə yollarını ayırmağa hazırdır.

Klub rəhbərliyi artıq oyunçunun 103 milyon avro müqabilində transfer edə biləcəyini açıqlayıb.

Transferin səbəbi isə fransalı yarımmüdafiəçinin "Mançester Yunayted"in baş məşqçisi Joze Maurinyo ilə münasibətlərinin pisləşməsidir.

Qeyd edək ki, Pol Poqba 2017-ci ilin yayında "Yuventus"dan transfer edilib.

* * *

Bu arada klubla bağlı digər xəbər də xarici KİV-lərin diqqətini cəlb edib. Belə ki, klubun sabiq futbolçusu Darron Gibson həbs oluna bilər.

Buna səbəb 31 yaşlı futbolçunun avtomobili sərxoş vəziyyətdə idarə edərək dayanacaqdakı maşını vurmasıdır.

İrlandiyalı futbolçunun qanında alkoqolun miqdarının normadan üç dəfə yüksək olduğu bəlli olub. O, məhkəmədə avtomobili sərxoş vəziyyətdə idarə etdiyini boynuna alıb.

## "Vaşinqton" ilk qələbəsini qazandı

Milli Hokkey Liqasında (NHL) pley-off mərhələsi davam edir. Növbəti oyun günündə 3 qarşılaşma keçirilib. Şərq konfransında overtayma gedən oyunda "Kolambus Blu Cekets"i məğlub edən "Vaşinqton Kepitalz" seriyadakı ilk qələbəsini qazanıb.

Qərb konfransında "Vinnipeq Cets" səfərdə "Minnesota Vayld"a qalib gəlib. "Los-Anceles Kinqz"i növbəti dəfə üstələyən "Veqas Qolden Nayts" isə bu mövsüm pley-offda mərhələ adlayan ilk klub olub.

## "Filadelfiya" seriyada önə keçdi

Milli Basketbol Assosiasiyasının (NBA) çempionatında pley-off mərhələsi davam edir. Növbəti oyun günündə 3 qarşılaşma keçirilib.

Şərq konfransında səfərdə "Mayami Hit"i məğlub edən "Filadelfiya Sevent Sikers" seriyada üstünlüyü yenidən ələ alıb.

Qərb konfransında "Nyu-Orlean Pelikans" "Portlend Treyl Bleyzers" üzərində növbəti qələbəsini qazanıb. Son çempion "Qolden Steyt Vorriorz" isə üçüncü dəfə "San-Antonio Spors"u məğlub edərək, seriyadakı fərqi üçə çıxarıb.

## Rafael Nadal çempion oldu

Monte-Karloda kişi tennisçilərin "Masters 1000" seriyalı turnirinə yekun vurulub. Finalda Rafael Nadal Key Nisikori ilə üz-üzə gəlib.



İspaniyalı raket ustası Rafael Nadal 1 saat 34 dəqiqə davam edən oyundan 2:0 hesabı ilə qalib ayrılaraq, 11-ci dəfə Monte-Karloda çempionluq sevinci yaşayıb.

Beləliklə, Nadal ardıcıl üçüncü dəfə turnirin qalibi olub.

Qeyd edək ki, dünyanın bir nömrəsi 2005-2012-ci illər aralığında 8 dəfə Monte-Karloda hamıdan güclü olub.

Beləliklə, 31-ci "Masters" çempionluğunu qazanan Rafael Nadal bu göstərici üzrə kişi tennisçilər arasında liderliyi ələ alıb.

"Olimpiya dünyası" qəzetinin kollektivi iş yoldaşları Aslan Şirəliyevə, əzizi

**Əlvan Şirəliyevanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Olimpiya dünyası

Baş redaktorun müavini: A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
H/H AZ79IBAZ38090019449333849204
M/H 0137010002944
KOD 805250
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir. Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı çap edilir.

DİQQƏT! Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-90-54; 564-74-19